

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ukrayna portalı: "Ermənistan beynəlxalq konvensiyaları pozaraq Azərbaycan ərazilərini minalayır"




3

# Böyük Qayıdış: Rifaha və İnkişafa doğru!




2


SƏS

№ 059 (6742)

7 aprel 2023-cü il.
Qiymәti 60 qәpik


# Erməni girovluğundakı ermənilər



4

## Bəhruz Quliyev: "Azərbaycan xalqı və dövləti heç vaxt bu xəyanəti unutmayacaq"



5

## İRAN: nə üçün məhz Zəfərdən sonra?..




7

## "Azərbaycan-İsrail münasibətləri minillik tarixə malikdir"



9



10

## 1906-cı ilin 7 aprel günü

## Oruc tutmaq hansı xəstəliklərin dərmanıdır?



16

# Böyük Qayıdış: Rifaha və İnkişafa doğru!



**Azərbaycan işğaldan azad olunan əraziləri dirçəltmək, doğma torpaqlarımızda rifah və inkişafa nail olmaq üçün mühüm iqtisadi addımlar atır, insanların yurd-yuvalarına qayıtması üçün proqramlar reallaşdırır. Xüsusilə 44 günlük müharibəni şanlı qələbə ilə başa çatdırdıqdan sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioritetlərdən biri də işğaldan azad etdiyi torpaqlara tezliklə Böyük qayıdışı gerçəkləşdirmək idi. Buna görə də Vətən müharibəsindən dərhal sonra tarixi ərazilərimizdə geniş quruculuq və bərpa işlərinə start verildi. Qarabağa və Şərqi Zəngəzura yenidən həyatın qaytarılması üçün birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında bu ərazilərdə dünyada misli görünməmiş meqalayihələrin icrasına başlanıldı.**

Prezident İlham Əliyevin zəfərdən ötən bu ikiillik qısa zaman kəsiyində mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər etməsi, erməni vəhşilərinin yerləyeksan etdiyi qədim şəhərlərimizin yeni bünövrələrini qoyması, yeni yolların, tunellərin, beynəlxalq hava limanlarının təməllərini atması, bütün infrastrukturu başdan yaratması Böyük qayıdışın tezliklə reallaşdırılmasına mühüm təkan verdi.




Azərbaycan ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri öz iqtisadiyyatının gücü sayəsində yenidən qurur, bu ərazilərdə irimiqyaslı müasir infrastruktur layihələri icra edir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş bu proqram Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasını tənzimləyir. Elmi cəhətdən də əsaslandırılmış mükəmməl sənəd olan Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Dövlət proqramı 2022-2026-cı illəri əhatə edir.

Proqramda deyilir ki, Azərbaycan hökuməti 2027-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 280 min ha ərazinin minalardan təmizlənməsini planlaşdırır. Dövlət Proqramında qeyd olunur ki, 2020-2022-ci illərdə 57,6 min ha ərazi minalardan təmizlənib.

Sənəddə qeyd olunan planlara əsasən, 2024-cü ildə Laçın Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. 2026-c ildə qədər Ağdam-Xankəndi qaz kəməri tikiləcək, sərhəddə keçid məntəqələri fəaliyyətə başlayacaq. 2026-cı ildək Qarabağ və Şərqi Zəngəzura 10 min 270 ailə, 2027-ci ilə qədər - 34 min 500 ailə köçürüləcək. 2027-ci ilədək burada 34,5 min mənzil və fərdi yaşayış evi inşa ediləcək. Bu vaxta qədər Qarabağ və Şərqi Zəngəzurda hərbi infrastruktur möhkəmləndiriləcək, burada həmçinin enerji, nəqliyyat, idman, sosial və digər infrastruktur inşa olunacaq. 2026-cı ilə qədər burada 197 məktəbəqədər və ümumi təhsil müəssisəsi tikiləcək və bərpa ediləcək, 2027-ci ilədək isə regionda ali məktəbin bir filialı fəaliyyətə başlayaq, DOST mərkəzlərinin 7 filialı açılacaq.



Böyük Qayıdışa dair I Dövlət Proqramı ancaq bu ərazilərə insanları qaytarmaqla kifayətlənmir. Proqramda həm də dayanıqlı icmaların yaradılması, sahibkarlıq fəaliyyəti, gələcəkdə məşğulluğun təmin edilməsi və s. kimi kompleks məqsədlər nəzərdə tutulur. Bir sözlə, sənədə əsasən, 2027-ci ilə qədər regionda ipoteka sistemi istifadəyə veruilməlidir və ilkin turizm infrastrukturu formalaşdırılmalıdır.

### AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.




O da məlumdur ki, işğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. Bu potensialın reallaşdırılması üçün işğaldan azad olunmuş ərazilərdə yeni müəssisələr tikilməli, sahibkarlıq fəaliyyətləri qurulmalıdır. Bu fəaliyyətlərin uğurla qurulması üçün investorları stimullaşdıracaq uzunmüddətli vergi və gömrük güzəştləri tətbiq olunacaq. Proqramın icrası müddətində işğaldan azad olunmuş torpaqlarda yaradılacaq yeni istehsal sahələri bu ərazilərə qayıdacaq insanların işlə təmini məsələlərini də qabaqcadan həll etməyə kömək edəcək.

Həmçinin, Dövlət Proqramının əsas hədəfləri həm infrastrukturun formalaşdırılması, yenidən qurulması, həm iqtisadiyyatın formalaşması və reinteqrasiyası, sosial inkişaf, həm də ətraf mühitdə tarazlığın qorunması, "yaşıl iqtisadiyyat"ın formalaşdırılmasından ibarətdir. Qeyd edək ki, işğal müddətində Qarabağ və Şərqi Zəngəzurda infrastruktur tamamilə dağıdılıb. Onların yenidən qurulmasına ehtiyac var və bu istiqamətdə də intensiv şəkildə işlər gedir. Həmçinin, Proqramda "yaşıl iqtisadiyyat", "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarına uyğun olaraq yaşayış məntəqələrinin salınması, alternativ enerji mənbələrindən daha çox istifadə edilməsi nəzərdə tutulub. Buraya ətraf mühitin qorunmasına və işğal müddətində Ermənistanın törətdiyi ekoloji soyqırımdan sonra ekologiyanın yenidən formalaşması, yaşıllıqların artırılması kimi hədəflər daxildir. Bütövlükdə Proqramın əsas özəlliyi ondan ibarətdir ki, sənəddə konkret hədəflər və fəaliyyətlər müəyyən olunub. Hər fəaliyyətə məsul olan dövlət qurumu müəyyənləşdirilib. Bir sözlə, I Dövlət Proqramının imzalanması birmənalı şəkildə qayıdış prosesinin daha da sürətlənməsinə şərait yaradacaq.

### QISA ZAMANDA GERÇƏKLƏŞDİRİLƏN NƏHƏNG UĞURLAR

Artıq qələbəmizdən ötən iki il müddətində Qarabağda və Şərqi Zəngəzurda quruculuq və bərpa işləri ilə əlaqədar mühüm layihələr gerçəkləşdirib. Artıq qələbədən sonra Böyük qayıdışa uğurlu start verilib və Zəngilan rayonunun Ağalı kəndinə sakinlər köçürülüb.

İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı infrastruktur layihələri icra olunur. Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib. Ötən il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu 2023-cü ildə istifadəyə veriləcək. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edildi. 2022-ci il martın 15-də Azərbaycanda inşa ediləcək 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su-elektrik stansiyasının açılışı olub. Su elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək elektrik enerjilərindən qaynaqlanacaq.

Ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq, bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb. Böyük qayıdışın tərkib hissəsi kimi Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılmasıdır.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# “Tacikistanla Azərbaycanı tarixi dostluq əlaqələri birləşdirir”

“Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfəri iki ölkə arasında münasibətlərin daha da inkişafına töhfə verəcək. Səfər çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu təsdiqləyir”. Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, Tacikistan Prezidenti Emoməli Rəhmonun dəvəti əsasında baş tutan səfər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünə təsadüf edir. Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, humanitar və digər sahələrdə münasibətlər də birləşdirir. Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. İki ölkə arasında ümumilikdə bir çox sənədlər, o cümlədən 2007-ci il martın 15-də ”Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə” imzalanıb. Parlamentlərarası əlaqələrə gəldikdə deyə bilərik ki, Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Tacikistan Respublikasının Ali Məclisinin hər iki palatasında Azərbaycan Milli Məclisi ilə parlamentlərarası dostluq və əməkdaşlıq qrupu mövcuddur.



Millət vəkilinin sözlərinə görə, Azərbaycan və Tacikistan prezidentləri həm təkbətək, həm də geniş tərkibdə görüşləri zamanı qarşılıqlı əməkdaşlığın inkişafına dair faydalı müzakirələr aparıblar. Dövlət başçılarının mətbuata birgə bəyanatları zamanı Prezident İlham Əliyev ölkələrimizin qardaşlıq münasibətlərini vurğulayıb: ”Bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərinin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəlləriındəki fəaliyyətin nəticəsidir. O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, - hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı. Buna görə düşünürəm ki, xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar”. Tacikistan Prezidenti Emoməli Rəhmon isə deyib: ”Azərbaycan Prezidentinin səfəri həm bu əlaqələrin, həm də xalqlarımızın çoxəsrlik qarşılıqlı ünsiyyət tellərinin məntiqi davamıdır. Bu əlaqələrin əsasını hər bir tacikin evində dərin hörmət bəslənən, misli-bərabəri olmayan Nizami Gəncəvi qoyub. Buna görə də bizim danışıqlar, həmişəki kimi, qurucu xarakter daşıyıb, ikitərəfli qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəlib. Danışıqların gedişində biz ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini ətraflı nəzərdən keçirdik, bizim üçün aktual olan bütün məsələlərə dair fikir mübadiləsi apardıq. Bu gün imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmləndirilməsinə və tamamlanmasına yönəlib”. Danışıqlarda təhlükəsizlik məsələləri diqqət mərkəzində olub. Dövlət başçıları beynəlxalq terrorizmə, ekstremizmə, narkotiklərin və silahların qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizədə əməkdaşlığın möhkəmləndirilməsinin tərəfdarı olduqlarını bildiriblər.

Sevinc Fətəliyeva qeyd edib ki, iki dövlət arasında imzalanmış sənədlər qarşılıqlı münasibətləri daha da gücləndirəcək: ”İmzalanmış sənədlər arasında ”Azərbaycan Respublikasının Şuşa şəhəri ilə Tacikistan Respublikasının İsfara şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Protokol” da böyük önəm kəsb edir. Bu fakt işğaldan azad edilmiş ərazilərlə bağlı beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünə dəstəyinin təzahürüdür. Tezliklə tarixi Şuşa şəhəri bütün dünyanın diqqətini cəlb edən turizm məkanına da çevriləcək”.

# Rusiyalı politoloq: ”Ermənistan Qərbin Cənub Qafqaz barədə planlarında oyuncaqdır”



Ermənistan regionda vəziyyətin açıq-aşkar dəyişməsinə hazır deyil. Qərbin regionda yeni münaqişə qızışdırmaq barədə planlarında oyuncaq olan Ermənistan öz hərəkətlərini yalnız Qərbdəki kuratorları ilə razılaşdırır. Rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis, təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov AZƏRTAC-a müsahibəsində Cənubi Qafqazda cari vəziyyəti şərh edərək bu cür fikirlər söyləyib.

Agentliyin müsahibi deyib: ”Həqiqətən, ekspertlərin çoxu regionda yaranmış vəziyyəti partlayış təhlükəli hesab edir, lakin mənim fikrimcə, vəziyyəti koordinasiya etmək mümkündür. Ermənistanın təxribatçı addımları yalnız regionda vəziyyətin açıq-aşkar dəyişməsinə hazır olmayan dövlətin hərəkətləridir. Ermənilərin nə layiqli ordusu var, nə də iqtisadiyyatı. Ermənistan yalnız Azərbaycanın və Rusiyanın maraqlarına zidd olaraq üçüncü oyunçulara - ilk növbədə Avropa İttifaqına kömək edə bilər. Məsələn, Azərbaycanın Qarabağda vəziyyətin sülh yolu ilə tənzimlənməsi barədə təşəbbüslərini heç vaxt qəbul etməyən Fransa bu gün ermənilərin maraqlarını fəal müdafiə edir”.

Ekspertin fikrincə, Azərbaycanın sülhməramlı addımları belə güman etməyə əsas verir ki, Qarabağ məsələsinin qeyri-hərbi yolla qəti həlli tamamilə mümkündür.

Y.Mixaylov əminliklə deyib: ”Mən maraqla müşahidə edirəm ki, Bakı Qarabağın qalan hissəsində - Xankəndidə öz planlarını hərbi yolla reallaşdırmaqdan imtina edir, bütün zəruri yüksəklikləri, qanunsuz erməni dəstələrinin yerdəyişmələrini, yüklərin daşınmasını nəzarətə alır, Rusiya sülhməramlıları ilə qarşılıqlı fəaliyyət göstərir, regiona hərbi sursat daşınmasının qarşısını almağa çalışır və ən başlıcası, Qarabağ erməniləri ilə dialoqa başlayır. Bunları nəzərə alaraq, hesab edirəm ki, Qarabağ məsələsinin qəti həlli qeyri-hərbi yolla həyata keçirilə bilər. Azərbaycanın Qarabağ erməniləri özlərinin gələcəyi məsələsini kənardan təsir olmadan, özləri həll edə bilər”.

Ekspert qeyd edib ki, sülh müqaviləsi imzalanacağı və qalan ərazilər üzərində nəzarət müəyyən ediləcəyi halda, bəzi qarantiyalar, regiona investisiya qoyuluşu vəd edən Azərbaycan düzgün istiqamətdə hərəkət edir. Y.Mixaylov daha sonra əlavə edib ki, buna baxmayaraq belə vəziyyət qərbli aktorların o qədər də xoşuna gəlmir, onlar Cənubi Qafqazı yenidən alovlandırmağa, həm Azərbaycanı, həm də Rusiyanı və İranı müharibəyə cəlb etməyə çalışırlar. Rusiyalı politoloq vurğulayıb: ”Ermənistan burada oyuncaqdır. O öz hərəkətlərini yalnız Qərbdəki kuratorları ilə razılaşdırır. Lakin mənə belə gəlir ki, bu, müvəqqəti haldır”.

Ekspert bu baxımdan İranın Azərbaycana qarşı düşmənçilik hərəkətlərinə toxunaraq vəziyyətin düzələ və nizamlana biləcəyini söyləyib. O deyib: ”İran ilə Azərbaycanın mürəkkəb münasibətləri tarixən yaranıb, çünki İranın şimalında təqribən 30 milyon etnik azərbaycanlı yaşayır və bu fakt dövlətlərarası münasibətlərə təsir göstərir. Digər tərəfdən, İran Rusiyanın müttəfiqidir və mənim fikrimcə, Rusiya Federasiyası Azərbaycan ilə İran İslam Respublikası arasında münaqişəli məqamlarda vəziyyətin nizamlanmasına kömək edir”.

## Ukrayna portalı: “Ermənistan beynəlxalq konvensiyaları pozaraq Azərbaycan ərazilərini minalayır”




Ermənistan beynəlxalq konvensiyaların tələblərini pozaraq Azərbaycan ərazilərini minalayır. Bu barədə Ukraynanın obozrevatel.com saytında dərc olunan məqalədə Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu sədrinin müavini Murad Cəfərov yazıb. Məqalədə qeyd olunub ki, minalardan istifadənin qarşısının alınması istiqamətində beynəlxalq səylərə baxmayaraq, dünyanın 70 ölkəsində, o cümlədən Azərbaycan və Ukraynada bir çox ərazilər minalanıb.

Vurğulanıb ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü bəndinə zidd olaraq, Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni hərbi fəaliyyətini davam etdirir, nəinki qoşunlarını Azərbaycan ərazisindən tam çıxarmayıb, hətta təxribat törətməkdə davam edir. Azərbaycan ərazisində aşkar edilmiş külli miqdarda mina bu təxribatçı fəaliyyətə əyani sübutdur.

2020-ci ildə Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 288 azərbaycanlı mina partlayışlarının qurbanı olub, onlardan 50-si həyatını itirib. Ermənistanın mina terrorunun son qurbanları martın 16-da həlak olan iki dinc azərbaycanlıdır.

# Erməni girovluğundakı ermənilər



Azərbaycanın bütün ərazisində olduğu kimi, Qarabağ bölgəsində də öz suveren hüquqlarını davamlı olaraq bərpa etməkdədir. 2020-ci ilin 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlıları müvəqqəti olaraq yerləşdirilib. Ötən 2 il yarım müddətində bu ərazilərdə yaşayan ermənilərin hələ də inteqrasiya prosesinə qoşulmadıqlarını nəzərə alsaq burada Azərbaycan qanunlarının keçərli olmadığını söyləyə bilərik. Amma bu o demək deyil ki, vəziyyət bundan sonra da indiki şəkildə qalmaqda davam edəcək. Əsla, sadəcə Azərbaycan humanistlik və erməni şıltaqlığına dözüm nümayiş etdirir. Bu yanaşma, bu münasibət isə müddətsiz deyil. Azərbaycan dünya birliyi tərəfindən tanınmış ərazilərində konstitusion haqlarının bərpasını gələcəyə saxlamaq niyyətində deyil.

Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərə gəlincə, onların yalnız bir seçimi var, o da Azərbaycan vətəndaşlığını qəbul etmək və yaşamaq. Azərbaycan vətəndaşlığını almağın, həm də Azərbaycanda yaşamağın başqa yolu yoxdur. Separatçılar isə 1988-ci ildən bəri dünyanın bir çox ölkəsindən müəyyən şirnikləndirici təkliflər sayəsində Qarabağda məskunlaşdırdıqları erməniləri burada girov olaraq saxlamaqdadırlar. Bu günlərdə separatçılar tərəfindən yayılan "fərman"da da bu barədə deyilir ki, onların yazılı icazəsi olmadan Qarabağı tərk etmək olmaz. Bunun bir adı var, o da insanları Qarabağda zorla, həm də girov kimi saxlamaq. Əslində separatçılar öz mövcudluqlarını davam etdirmək üçün bu yola əl atırlar. Hədə-qorxu, təhdid olmasa Qarabağ iki gün ərzində boşalar.

Qondarma rejimin "dövlət naziri" deyib ki, Qarabağdan Ermənistana getmək istəyənlərə bu heç də asan başa gəlməyəcək. Yəni, Rusiya sülhməramlı kontingentinə müraciət etməzdən əvvəl mərkəzin icazəsi alınmalı və bundan sonra Ermənistana getmək mümkün olacaq. Searatçılar Azərbaycanla əlaqə qurmağa çalışan hər kəsə qarşı repressiv alətlərdən istifadə edir. Hətta Qarabağdakı Rusiya Sülhməramlıları ilə Əməkdaşlıq Mərkəzinin rəhbəri, Azərbaycan hakimiyyəti ilə aparılan danışıqların daimi iştirakçısı Sergey Martirosyan istefaya göndərilib. Faktı Ermənistanda nəşr olunan "Hraparak" qəzeti yayıb. Onun istefasına səbəb qondarma rejimin "dövlət naziri" Qurgen Nersisyanla münasibətlərinin gərgin olması kimi göstərilsə də, əslində əsas səbəb Martirosyanın inteqrasiyaya meylli olmasıdır. Martirosyan separatçıların Bakı ilə danışıqlar qrupuna daxil olan 3 şəxsdən biridir. O, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Bakı ilə aparılan demək olar ki, bütün danışıqlarda iştirak edib. Bununla belə Martirosyanın qondarma rejimin "təhlükəsizlik şurasının keçmiş rəhbəri" Vitali Balasanyanla da sıx əlaqəsi olub. Məhz bu əlaqə sayəsində Balasanyan onun Bakı ilə aparılan bütün danışıqlarda iştirakına şərait yaradıb. Sülhməramlıların ilk komandanı Rüstəm Muradovla yaxın əlaqələri olan Martirosyanın oğlunun II Qarabağ müharibəsində itkin düşən hərbçilər siyahısında olduğu deyilir.

Ermənistanda isə Qarabağ, Laçın yolu, inteqrasiya, yaxınlaşma, uzlaşma, ərazi bütövlüyü, sülh danışıqları, sərhədlərin delimitasiya və demarkasiyası məsələlərinə yanaşma birmənalı deyil. Başqaları bir kənara, bu ölkənin birinci şəxsinin, baş nazirin menyüsündə yazılanlar aydın deyil. Gah sülhdən danışır, gah müharibədən, gah Qarabağın Azərbaycan ərazisi olduğunu deyir, gah da Qarabağda baş verənlərə müdaxilə edir, bir gün KTMT-yə, o biri gün Avropa İttifaqının müşahidəçilərinə "biət" edir. Qeyri-müəyyənlik, əslində, sülh prosesini ləngitməyə hesablanmış gedişdir. Təbii ki, burada uduzan tərəf də region ölkələri, xüsusən də məğlub Ermənistandır.

Nikol Paşinyan bildirib ki, Laçın yolundakı "blokada" ilə əlaqədar Qarabağda humanitar vəziyyət gərgin olmaqda davam edir. El məsəli var, deyir yalançını mənzilinə qədər qovarlar. Əgər gün ərzində 105 yük maşını bu yoldan sağa-sola şütüyürsə, on tonlarla yük daşınırsa, sərnişinlər Xankəndidən Laçın, Laçından isə Xankəndi istiqamətinə sərbəst olaraq hərəkət edə bilirsə, bunun harası "blokada" oldu? Paşinyanın çıxışına diqqət edək: "Qaz və elektrik enerjisi kəsilib. Bir gün əvvəl Gorusdan Xankəndinə gedən Qarabağın bir qrup erməni vətəndaşı evlərinə buraxılmadı. Azərbaycan





Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) 22 fevral 2023-cü il tarixli qərarına əsasən Laçın yolu ilə hərəkəti tam bərpa etmək üçün bütün tədbirləri görməlidir". Əvvəlcə Paşinyanın birinci cümləsinə aydınlıq gətirək. Azərbaycanın Qarabağ iqtisadi rayonu dünya birliyi tərəfində onun suveren ərazisi hesab edilir. Paşinyan bundan xəbərsizdirsə, həmin sənədlərə bir daha baxması, onlarla dərindən tanış olması gərəkdir. Belə olan halda Azərbaycanın ermənilər yaşayan ərazisinə kommunikasiya xəttləri niyə Ermənistandan çəkilməlidir? Hansı əsasla Paşinyan qaz və işıq xətlərinin kəsilməsini blokada adlandırır?

Baş nazirin ikinci cümləsində "Qarabağın erməni vətəndaşı" ifadəsi Paşinyanın separatçılardan fərqlənmədiyini sübut edən yüzlərlə faktdan biridir. Belə ki, Qarabağın vətəndaşı yox, sakini ola bilər. Ermənistan öz ərazisinə daxil olan birini müəyyən prosedurlara dəvət edirsə və bunu normal hal sayırsa, Azərbaycan da ərazisinə daxil olan hər kəsin kimliyini bilməli və buna uyğun da davranmalıdır. Amma Azərbaycan tərəfi hələ də bəzi məqamları nəzərə alıb Qarabağda yaşayan ermənilərə gömrük-keçid prosedurlarını tətbiq etmir. Paşinyanın Beynəlxalq Ədalət Məhkəməsinin qərarını xatırlatmağa gəlincə, Azərbaycan ərazisində öncə öz qanunları işləyir, sonra isə beynəlxalq təşkilatların tövsiyyələri nəzərə alınır. BƏM-in qətnaməsi nə qədər ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi bağlanmayıb, qüvvəyə minməyəcək. Azərbaycan ərazisi nəzarətsiz bölgə statusunu daşımır, bura Suriya deyil ki, hər ölkənin hərbi karvanı buranı ayaqaltı etsin.

Baş nazir bir az da irəli gedərək vurğulayıb ki, "bir gün əvvəl baş verən "insident" Beynəlxalq Məhkəmənin qərarının icra olunmadığını bir daha təsdiqləyir və Ermənistan bundan irəli gələn beynəlxalq diplomatik səyləri davam etdirməlidir". Paşinyana xatırlatma, 1993-cü ildə Ermənistan Ordusu tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal olunanda BMT Təhlükəsizlik Şurası təxminən iki aylıq intervalla 4 qətnamə qəbul etdi. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərini tərk etməsi tələb edilirdi. İndiki baş nazirin sələfləri, Ermənistanın rəhbərləri niyə beynəlxalq təşkilatın qətnaməsini düz 27 il görməzdən gəldilər, qulaqardına vurdular? İndi Paşinyan hansı üzlə bizə BƏM-in qərarını xatırladır?

Paşinyanın şər-böhtan kampaniyasını Qarabağ separatçılarının "dövlət nazirinin müşaviri" Artak Beqlaryan da sözbəsöz təkrarlayıb. "Kor yabı" təxəllüslü Beqlaryan baş nazirin yalanlarının üstünə bir az da qoyub və hadisəyə bədii rəng verməyi də unutmayıb. Bildirib ki, guya "Azərbaycan hökumətinin agentləri 27 mülki vətəndaşın Ermənistandan Qarabağa hərəkətinin qarşısını alıblar. Əsasən qadınlar, qocalar və uşaqlardan ibarət mülki qrup ailələrinə qovuşmaq üçün Rusiya sülhməramlılarının iki maşını ilə Gorus şəhərindən yola düşüblər. Şuşa şəhəri yaxınlığındakı onların qarşısı alınıb. 5 saatdan çox Azərbaycan tərəfi ilə yolun açılması barədə danışıqlar aparılıb, amma nəticəsi olmayıb. Azərbaycanlılar avtomobillərdən birinə girərək insanları açıq şəkildə hədələyiblər, qorxudublar. Onlara deyiblər ki, ya Azərbaycan vətəndaşlığının qəbulu ya da geriyə qayıdın. 27 nəfərdən 23-ü gecə vaxtı Gorusa qayıdıb. Nəticədə 4 qadının səhhəti kəskin şəkildə pisləşib, onlardan 3-ü huşunu itirib. Sülhməramlılar təcili yardım çağıraraq (haradan çağırdıqlarını yazmır) qadınları rus və Azərbaycan avtomobilləri ilə Xankəndidəki tibb məntəqəsinə aparıblar".

Hadisənin sonrakı gedişatı ilə də hər birimiz tanışıq. Amma "kor yabı" dediyimiz Beqlaryanın dedikləri ağ yalandır. Bu şəxs nə hadisə yerində olub, nə də olsa belə görmək imkanı olmayan birisidir, yəni kordur. Hələ, ermənin koru belə "maraqlı" əfsanə uydurursa, görəsən, görmə imkanı olanı hansı dastanlar yazardı?

Bu arada Laçın yolundakı aksiyanın tələbi də dəyişir: ermənilər yalnız Azərbaycan vətəndaşlığını qəbul etdikdən sonra aksiyanın başa çatması məsələsi müzakirə olunacaq.

**V.VƏLİYEV**


jns Jewish News Syndicate
April 5, 2023
Gaza terrorists fire 16 rockets at Israel; IDF hits back at Hamas targets
BRIEF / As Israeli Jews conduct Passover seders, Gaza terrorists fire more rockets
BRIEF / IDF soldier wounded by gunfire in
AYOOB KARA
A place where there is no antisemitism
Azerbaijan can serve as a model of a multicultural society where Jews are free from persecution.
(April 2, 2023 / JNS) When Jews around the world celebrate Passover, they commemorate their liberation from slavery and bondage. Yet in many parts of the Jewish Diaspora, are the Jews truly free? After all, the Anti-Defamation League reports that antisemitism is at a record high in the United States, with a 36% increase in antisemitic incidents compared to the previous year. The situation in Europe and much of the Islamic world is even worse.
Spread the word. Help JNS grow! Share now:
FACEBOOK
TWITTER
WHATSAPP
EMAIL

## İsrailli sabiq nazir: "Yəhudi olmağın təhlükəsiz olduğu yeganə məkan Azərbaycandır"

ABŞ-nin geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrində "Antisemitizmin olmadığı bir yer" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın qələmə aldığı məqalədə Anti-Diffamasiya Liqasına istinadən bildirilir ki, ABŞ-də antisemitizm bütün zamanların ən yüksək həddinə çatıb. Antisemitizm təzahürləri əvvəlki ilə nisbətən 36 faiz artıb, eləcə də Avropada və əksər müsəlman ölkələrində vəziyyət daha kirtikdir.

Qeyd olunub ki, antisemit mövqeli ruhanilərin moizələri, antisemit xarakterli kitablar və televiziya verilişləri, sosial mediada antisemit bəyanatlarla müşayiət olunan məqalələr yəhudilərə qarşı zorakılıqlara səbəb olur. Beyt-Ummarda üç İsrail əsgərinin yaralandığı son terror aktı, İranın Afinada israilliləri hədəfləyən və qarşısı alınmış hücum planı, Huvar və Təl-Əvivdə daha əvvəl baş vermiş hücumlar yaxın zamana aid misallardır. Eyni zamanda, vurğulanıb ki, Qərbdə antisemitizmin təlqini ABŞ-də Pittsburq, Kaliforniya və Texasdakı sinaqoqlara hücumlar, Almaniyada da sinaqoqlara basqınlar, Fransada dinc yəhudilərin qətli ilə nəticələnib. Bu cür təlqinlərin təkcə Yaxın Şərqdəki radikal islamçı dünya ilə məhdudlaşmadığını vurğulayan müəllif antisemit təbliğatının Qərbdəki radikal müsəlmanlar, ifrat sağçı neonasistlər və ifrat solçular arasında yayıldığını, bu tendensiyanın bütün dünyada yəhudilər üçün təhlükəli vəziyyət yaratdığını diqqətə çatdırıb.

Qeyd olunanlar fonunda sabiq nazir dünyada yəhudi olmağın təhlükəsiz olduğu yeganə məkan kimi Azərbaycanı qeyd edib. O, gecələr sinaqoqların açıq qaldığı yeganə ölkə olan Azərbaycanı dünyada dindar yəhudilərin təqib qorxusu olmadan dini geyimdə küçələrdə sərbəst gəzə bildikləri nadir yer kimi səciyyələndirib. Müəllifin fikrincə, çoxları inanmaqda çətinlik çəkə bilər ki, Azərbaycan dünyada yəhudilərin tam azadlıqda yaşadığı nadir yerlərdən biridir, yəhudilər burada növbəti terror aktı və ya antisemitizm təzahürü qorxusu ilə yaşamağa məhkum deyillər. Sabiq nazir Azərbaycanda olarkən ravvin Zamir İsayevlə görüşdüyünü və sonuncunun antisemitizmin Azərbaycan mədəniyyətinə yad olmasına dair səsləndiridiyi fikirlərdən təsirləndiyini də qeyd edib.

İsrailli politoloqun qənaətincə, antisemitizmin kökünü kəsmək üçün digər ölkələr Azərbaycandan uğurlu multikultural cəmiyyət qurmağın modelini öyrənməlidir. Belə ki, məhz Azərbaycan antisemitizmin olmadığı, insanların Pasxa, Novruz və digər bayramları bir yerdə qeyd etdikləri cəmiyyət yaratmağa müvəffəq olub.

BAKURS

ŞƏRH+AKTUAL

# İran bu addmları ilə özünə ciddi zərər vura bilər

## Bəhruz Quliyev: "Azərbaycan xalqı və dövləti heç vaxt bu xəyanəti unutmayacaq"



Məlum olduğu kimi, İran parlamentinin 210 nəfərə qədər deputatı Azərbaycanın İsraillə diplomatik münasibətlərini qurması və inkişaf etdirməsi, xüsusilə hər iki dost ölkənin qarşılıqlı olaraq səfirliklər açması ilə bağlı rəsmi Bakıya öz təbirlərincə etirazlı, hətta təhdid xarakterli mesaj yollayıblar. Bu barədə qonşu ölkənin İRNA agentliyi məlumat yayıb və orada bildirilir ki, Azərbaycanın Qüdsdə səfirlik açması yolverilməzdir və s. Azərbaycanın Xarici İşlər Nazirliyi qarşısında da əsassız "tələblərlə" çıxış edən Tehran rejiminin deputatları əslində bütün qırmızı xətləri keçiblər və bununla bir daha sübut ediblər ki, "İran İslam Respublikası" adı altında təqdim olunan məlum siyasi dairələr və onların əlaltıları əslində İslam pərdəsi altında öz kirli mənfəətlərini güdürlər.

Bu barədə Publika.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib. Onun sözlərinə görə, reallıqda Tehranın siyasi dairələri istər əvvəllər, istərsə də sonrakı dövrlərdə özlərinin inanılmaz və qəbuledilməz rəftarları ilə iki ölkə arasındakı münasibətlərə xələl vurublar və indi də öz əməllərini rəsmi Bakının üzərinə atmağa çalışırlar. Buna isə riyakarlıqdan başqa ad vermək olmaz.

**"Bu həmin İrandır ki, istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində təcavüzkar Ermənistanın silahlanmasında aparıcı rol oynayırdı"**

"İran parlamentinin Azərbaycan dövlətinin əleyhinə yaydığı bəyanatı ifrat riyakarlıq nümunəsi ilə yanaşı, Tehranın İslam pərdəsi altında tətbiq etdirdiyi kirli siyasi mənfəətlər güdməsinin göstəricisidir və düşünürəm ki, belə olan halda qonşu ölkə bu yolla əslində özü-öz daxilindəki çirkinliklərini ifşa edib", deyə bildirən Bəhruz Quliyev mövzu ilə bağlı şərhində onu da vurğulayb ki, Azərbaycanın istər regionda, istərsə də beynəlxalq miqyasda müstəqil siyasət yürütməsi, qətiyyət və iradə nümayiş etdirərək bütün dövlətlərlə isti və mehriban münasibətlər qurması İranı təlaşlandıran məsələlərdən biridir. İsraillə münasibətlərin daha möhkəm əsaslarda qurulması da məhz bu sıradandır. SİTAT: "Xüsusilə, İsrailin Azərbaycanda, Azərbaycanın isə İsraildə səfirlik açması İranı nədənsə narahat edir və məntiqsiz bəyanatlar verməsinə səbəb olur, Tehran rejimi Fələstin məsələsini ortaya ataraq sanki Bakıya qarşı ittiham trayektoriyasını genişləndirməyə çalışır. Halbuki bu həmin müsəlman İrandır ki, torpaqlarımız işğala məruz qaldığı dövrlərdə talanlara uğrayanda, məscidlərimiz, dini abidələrimiz dağıdılanda, donuz fermalarına çevriləndə susurdu. Susmağı da qalsın bir yana, bu həmin İrandır ki, istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində təcavüzkar Ermənistanın silahlanmasında aparıcı rol oynayırdı. Və bu, yenə də həmin İrandır ki, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Zəfərimizdən sonra uzun müddət Azərbaycana bu münasibətlə təbrik ünvanlamaqda tərəddüd etdi".



**"Son müharibə zamanı təkcə Cəbrayıl-Zəngilan cəbhəsində, İranla həmsərhəd ərazilərdə irəliləyən Silahlı Qüvvələrimizin süni şəkildə qarşısının alınması cəhdləri də bu sıradandır"**

Siyasi ekspert İranın zaman-zaman müsəlman Azərbaycanın "kürəyindən xəncər sancması", çoxsaylı xəyanətləri barədə də fikirlərini açıqlayıb. Təəssüf ki, bu hal özünü 44 günlük müharibədə də göstərib. SİTAT: "Son müharibə zamanı təkcə Cəbrayıl-Zəngilan cəbhəsində, İranla həmsərhəd ərazilərdə irəliləyən Silahlı Qüvvələrimizin süni şəkildə qarşısının alınması cəhdləri də bu sıradandır və Azərbaycan xalqı və dövləti heç vaxt bu xəyanəti unutmayacaq. Bax, budur İslam pərdəsi altında riyakarlığın aşkar nümunəsi. Bütün bunlardan sonra müstəqil qərarlar verən, istədiyi ölkələrlə diplomatik əlaqələrini möhkəmləndirən Azərbaycana qarşı görə təzyiq cəhdinə söykənən əsassız bəyanatın verilməsi xalqımız, ictimaiyyətimiz tərəfindən yalnız istehza ilə qarşılana bilər".

**"Azərbaycan-İsrail münasibətlərinə qarşı dil uzadan iranlı deputatlar bir reallığı da unudurlar ki, Azərbaycan bütün dövlətlərlə mehriban əlaqələrini qurur və bu siyasət paralel olaraq balanslı xarakterə söykənir"**

Bəhruz Quliyev İranın bu dəfə Fələstin bəhanəsini ortaya ataraq Azərbaycanı hədəfə almasını siyasi oyunbazlıq kimi xarakterizə edib və bir sıra mühüm xatırlatmaları önə sürməklə İranın Azərbaycanın digər ölkələrlə münasibətlərinə də müdaxilə etdiyini bildirib. Onun sözlərinə görə, yaxşı olardı ki, İran rəsmiləri və deputatları Azərbaycanın Fələstinlə bağlı keçirdiyi çoxsaylı tədbirlərini xatırlasın və bu barədə də danışsın. SİTAT: "Fələstinlə bağlı bəhanə edərək Azərbaycan-İsrail münasibətlərinə qarşı dil uzadan iranlı deputatlar bir reallığı da unudurlar ki, Azərbaycan yuxarıda da qeyd etdiyim kimi, bütün dövlətlərlə mehriban əlaqələrini qurur və bu siyasət paralel olaraq balanslı xarakterə söykənir".

Baş redaktoru bir xatırlatma da edib. Onun sözlərinə görə, bu gün ağızdolusu İslam Əməkdaşlıq Təşkilatı və İslam həmrəyliyindən danışan Tehran rejimi zaman-zaman bu mötəbər qurumun çıxardığı qərarlara etinasız yanaşıb, hətta bir sıra sənədlərin ratifikasiyasında nümayişkəranə şəkildə iştirak belə etməyib. İndi isə bu təşkilatı necə deyərlər, əlində "bayraq" edərək bizə qarşı çıxış edir. SİTAT: "Necə olur ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə etiraz əlaməti olaraq digər müsəlman dövlətlər, xüsusilə Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan İrəvanla diplomatik əlaqələr qurmaqdan imtina edir, amma Tehran İrəvanla ən yaxın münasibətlər qurur. Bu iradlarla bağlı bir dəfə də olsun fikir bildirməyən İran rəsmiləri bir daha riyakarlıqlarını ortaya qoyurlar".

**"İran parlamentinin deputatları bir daha düşünüb-daşınmalıdırlar, anlamalıdırlar ki, onların əsassız bəyanatları regionun inkişafına nə qədər ziddir və bu ziddiyyətlər məhz onların özlərinə ciddi zərərlər vura bilər"**

Siyasi ekspert sonda daha bir xatırlatma edib və bildirib ki, hələ 2018-ci ilin noyabrında Bakıda Fələstin dövlətinin xarici işlər naziri Riyad Əl-Malikini qəbul edən Prezident İlham Əliyev vurğulamışdı ki, əhalisinin böyük əksəriyyəti müsəlman olan Azərbaycanın İslam aləmi dövlətləri ilə də sıx münasibətləri mövcuddur və müstəqilliyin bərpasından sonra ölkəmiz həm türkdilli dövlətlərlə, həm də digər müsəlman dövlətləri ilə siyasi-diplomatik və iqtisadi əlaqələrin qurulmasına və inkişafına diqqətlə yanaşıb. Dövlətimizin başçısı onu da vurğulamışdı ki, Azərbaycan İslam ölkələri ilə, o cümlədən Fələstin dövləti ilə münasibətlərə həmişə xüsusi diqqətlə yanaşıb, dövlətimiz Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirib, dəstəyini əsirgəməyib. SİTAT: "Həmin vaxt Bakıda Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısı keçirilib və Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi də qeyd edilənlərə bariz nümunə kimi tarixə yazılıb".

Bəhruz Quliyev qeyd edib ki, əvvəlki illərdə də ölkəmiz Fələstinlə əlaqədar bir sıra mühüm tədbirlərə ev sahibliyi edib. SİTAT: "2013-cü ildə Azərbaycanın ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində "Müqəddəs Əl-Qüds şəhərinin inkişafı üçün Strateji Sektor Planının maliyyələşdirilməsi"nə dair İƏT Xarici İşlər Nazirlərinin Donor Konfransı və Fələstin Dövlətinə yardım üçün "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsi" adlı tədbirlər də Bakıda keçirilib. Bundan başqa, yenə 2017-ci ildə Azərbaycan BMT-nin Fələstin xalqının Ayrılmaz Hüquqlarının tətbiqi üzrə Komissiyasının, Humanitar məsələlərin Əlaqələndirilməsi üzrə Ofisinin, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və digər QHT və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qüds məsələsi üzrə Beynəlxalq Konfransa ev sahibliyi edib. Məgər bütün bunları İran parlamentinin deputatları bilmirlərmi? Əlbəttə ki, bilirlər, üstəlik çox yaxşı bilirlər. Sadəcə, Azərbaycanın regionda güclənməsini həzm edə bilməyən Tehran rejimi vaxtaşırı hansısa "qırmızı xəttdən" danışır, "tarixi sərhədlərin dəyişdirilməməsi" ətrafında var-gəllər edir. Amma göründüyü kimi, belə lüzumsuz addımların Azərbaycan dövlətinin və xalqının siyasi iradəsinə heç bir təsiri ola bilməz. Azərbaycan dövləti bundan sonra da özünün müstəqil regional və beynəlxalq siyasətini inamla, qətiyyətlə davam etdirəcək və dövlət başçımızın da vurğuladığı kimi, heç bir xarici qüvvə bu qərarlarımızın qarşısını ala bilməz və bundan sonra da ala bilməyəcək. Bu baxımdan, İran parlamentinin deputatları bir daha düşünüb-daşınmalıdırlar, anlamalıdırlar ki, onların əsassız bəyanatları regionun inkişafına nə qədər ziddir və bu ziddiyyətlər məhz onların özlərinə ciddi zərərlər vura bilər".

***Rövşən RƏSULOV***

# "Heydər Əliyev yeni Azərbaycan erasını yaratdı"



"Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, işlərə imza atıb ki, onun Azərbaycan xalqı qarşısındakı xidmətlərini sözlə ifadə etmək mümkün deyil. Əgər biz bu gün Azərbaycan tarixindən danışa biliriksə, Azərbaycan deyə bir məmləkət mövcuddursa, məhz bu ulu öndərin fəaliyyətidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, Heydər Əliyev yeni Azərbaycan erasını yaratdı: "Şübhəsiz ki, ən çətin və gərgin dövrdə artıq məhv olma təhlükəsinin qarşısında azərbaycançılıq adlı vahid bir ideya yaradıldı ki, bu həmin dövrdə çox böyük məsuliyyət və fədakarlıq tələb edirdi. Ulu öndərin ideyasından ideologiyaya çevrilməyə başlayan azərbaycançılıq bu gün bizi Cənubi Qafqazda söz sahibinə çevirdi".

Deputat sözlərinə belə davam edib: "İndi tam əminliklə deyə bilərik ki, ulu öndərin banisi olduğu azərbaycançılıq ideologiyası xalq tərəfindən mənimsənildi və özünü doğrultdu. Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün bütün gücünü istifadə etdi. O, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı, müstəqil Azərbaycan dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar qısa bir zamanda uğurlu nəticələr verərək iqtisadi inkişafa gətirib çıxardı və xalqın rifah halının yaxşılaşmasına şərait yaratdı. Bu dahi şəxsiyyət qətiyyətləri ilə xalqı öz arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib olmağa nail oldu.

Bu il Azərbaycanın tarixində yeni bir eranın yaradıcı olan Ulu Öndərin 100 illiyi ilə əlaqədar Heydər Əliyev ili kimi qeyd olunur. Ölməz rəhbərin fəaliyyəti nəinki bu il, hər zaman Azərbaycan gəncliyinə, azərbaycan ictimaiyyətinə təbliğ olunmalıdır. Çünki məhz Heydər Əliyevin fəaliyyəti Azərbaycan tarixidir, dövlətçilik, müstəqillik bir xalq dövlət kimi var olmaq uğrunda mübarizədir. Bu cəhətdən də dövlətimizin bu şanlı yolunun unudulmaması üçün hər zaman təbliğat aparılmalıdır. Zaman keçdikcə Ulu öndərimizin adı Azərbaycan xalqının simvoluna, fəaliyyəti isə qəhrəmanlıq tarixinin rəmzinə çevrilir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlı yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd edir. Xalq qarşısındakı xidmətlərinə görə Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca ulu öndər də yaşayacaqdır".

***Ayşən Vəli***



# Avtoparkımızı necə təzələyə bilərik?

## Köhnə maşınlara məhdudiyyət qoymazdan əvvəl təzə maşınlara güzəştlər edilməlidir

**Xəbər verildiyi kimi, Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən zavod buraxılış tarixinə görə yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan Respublikası ərazisinə gətirilməsi məhdudlaşdırılıb. Qərarda məqsədin ölkənin avtomobil parkının yenilənməsi olduğu göstərilsə də, bu məsələ icitmiayyət arasında birmənalı qarşılaşnmayıb. Bir çoxları bu qərarın istismardan çıxmaqda olan maşınların bərpa olunaraq yenidən dövriyyəyə daxil edilməsinə və köhnə maşınların qiymətinin bahalaşmasına səbəb olacağını düşünür. Bu sahədə real vəziyyət necədir, belə bir qərarın verilməsi avtoparkımızın yenilənməsinə hansı dərəcədə təsir göstərəcək? Bu yazımızda bunu araşdırmağa çalışmışıq.**

### Avtoparkımızın real vəziyyəti qənatbəxş deyil

Hazırda Azərbaycanda təxminən 1,5 milyona avtomobil istismardadır. Təxminən 1 milyon minik avtomobilinin yaşı (ölkə avtoparkının 70%) 10 ildən yuxarıdır. 20 faizinin isə yaşı 30 ildən çoxdur. Azərbaycanın avtomobil parkında 100 mindən artıq yaşı 40 il və daha yuxarı, 125 mindən artıq yaşı 30-dan yuxarı, 300 mindən artıq yaşı 20-dən yuxarı müxtəlif tip avtomobil var.

Yollarda xeyli sayda istismar müddətini başa vurmuş, texniki cəhətdən yararsız və təhlükəli maşınları görmək mümkündür. Köhnə maşınların sayının çox olması ekologiyanın korlanmasına da gətirib çıxarır. Belə ki, Azərbaycanda hava çirklənməsində avtomobil sektorunun payı 80 faizdən çoxdur. Bu da dəm qazı, karbohidrogenlər, azotoksidləri və digər zərərli qazların həcmdə buxarılması deməkdir.

Köhnə və xarab maşınların yaratdığı digər təhlükəyə gəldikdə deməliyik ki, yol qəzalarının 70 faizi məhz bu avtomobillərin payına düşür. Nəticədə hər il yüzlərlə insan bu qəzalarda həlak olur, yüzlərlə insan isə ağır xəsarət alır.

### Köhnə maşınları necə yığışdırmaq olar?

Bir neçə ildir deyilir ki, Azərbaycanda avtomobil parkı yenilənəcək, istismar müddətini başa vuran yararsız maşınlar utilizasiyaya göndəriləcək. Bunun əvəzində vətəndaşlara ucuz qiymətə və güzəştli şərlərlə yeni avtomobil almaları üçün şərait yaradılacaq.

Bu, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın 7.3.7.1-ci bəndində nəzərdə tutulub. Bu il artıq bu dövlət proqramının sonuncu ilidir, lakin proses hələ də başlamayıb.

Bu layihənin həyata keçirilməsi zamanı vətəndaşları maraqlandıran məsələlərdən biri köhnə avtomobillərin hansı qaydada utilizasiyaya göndəriləcəyi, hansı şərtlərlə yeni avtomobilləri ala biləcəkləridir. İqtisadiyyat Nazirliyi bildirib ki, "Nəqliyyat vasitələrinin utilizasiyası proqramının hazırlanması və tətbiqi" layihəsi çərçivəsində nəqliyyat vasitələrinin utilizasiyasının tam könüllülük əsasında həyata keçirilməsi, o cümlədən bu istiqamətdə müəyyən stimullaşdırıcı tədbirlər nəzərdə tutulur.

Belə ki, vətəndaş könüllü şəkildə nəqliyyat vasitəsini utilizasiyaya verdikdən sonra ona təqdim ediləcək təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş avtomobil almaq istədikdə müəyyən qədər güzəşt əldə edəcək. Bundan başqa, təsdiqedici sənəd əsasında müəyyən məbləğin birdəfəlik ödəniş kimi alınması imkanı da nəzərdə tutulub.

### Avtoutilizasiya proqramı haqda xarici təcrübə

Bir çox ölkələr avtoutilizasiya proqramı həyata keçirərək öz avtomobil parklarını yeniləyib və nəticədə həm yol qəzalarının sayı, həm də ekoloji çirklənmə xeyli azalıb. Məsələn, Rusiyada demək olar ki, 13 ildir köhnə avtomobillərin utilizasiyası proqramı qüvvədədir. Dövlət bu proqramın həyata keçirilməsi üçün federal büdcədən hər il böyük məbləğdə vəsait ayrılır.

Hər il vətəndaşlara Rusiya istehsalı olan 100 mindən çox müasir avtomobil satılır, dövlətin utilizasiya proqramının



büdcəsi isə 50 milyard rubl (təxminən 1,5 milyard manat) civarındadır.

Dövlət texniki vəziyyəti bərbad olan maşınları münasib qiymətə alır və vətəndaşa yeni avtomobil almaq üçün güzəştli və uzunmüddətli kredit verir. Yerli avtomobillər belə vətəndaşlara daha ucuz qiymətə təklif olunur. Beləliklə, Rusiya öz vətəndaşlarını yerli markalara aid avtomobilləri almağa həvəsləndirir. Nəticədə son 10-12 ildə Rusiyanın avtomobil parkının yarıdan çoxu yenilənib.

### Köhnə maşından təzəsinə keçidin problemləri

Azərbaycanda ən ucuz avtomaşınların qiymətləri 17-20 min manatdır. Bu halda vətəndaş özünün hazırda bazar dəyəri 3-5 min manat olan avtomobilini verib 4-5 qat qiymətə yeni maşın ala bilməyəcək, çünki dövlət onun köhnə maşınına uzağı 1-2 min manat ödəyəcək. Qalan fərqi hətta kreditə bölsələr belə vətəndaş uzun illər ayda 300 manatdan az olmayaraq vəsait ödəməlidir ki, bu da böyük əksəriyyət üçün mümkün deyil.

Bu halda yeganə çıxış yolu, dövlətin həmin maşınları real bazar dəyərinə alması, ölkədə yığılan maşınları və xaricdən gətirilən maşınları onlara maya dəyərinə verməsidir. Həm də faizsiz və uzunmüddətli kreditlə. Yalnız bu halda bu proqram effektli və ədalətli ola bilər. Üstəlik, həmin avtomobillərin detallarının güzəştli satışı təşkil olunmalıdır. Çünki yeni model maşınların ehtiyat hissələri çox bahadır, demək, məsələ təkcə maşını almaqla bitmir, onu saxlaya bilmək də var.

Avtomobillərin gömrük rüsumu yüksək olduğundan əhalinin 90 faizinin yeni və az işlənmiş maşın almaq imkanı yoxdur. Normal bir təzə və ya az işlənmiş maşın ölkəyə gömrük rüsumları ilə birgə 30 min manata gəlib çıxacaq. Lakin 10-15 min manata daxili bazardan saz vəziyyətdə 10-15 ilin maşınlarını almaq mümkündür.

### Yeni avtomobillərin satışına zərbə vuran amillər

2015-ci və 2017-ci illərdə tətbiq olunmuş yeni aksiz vergiləri, 2018-ci ilin yanvar ayında yeni gömrük rüsumu və 2019-cu ilin yanvar ayında daha bir yeni aksiz vergisi oldu. Nəticədə təzə modellərin qiyməti əhalinin əksəriyyəti üçün əlçatmaz səviyyəyə qalxdı.

Daha bir məqamı nəzərə almaq lazımdır ki, bir sıra vətəndaşlarımız ucuz və köhnə avtomobillə yük daşıyır, xidmət göstərir, öz təsərrüfatı üçün istifadə edir və bununla dolanır. Salondan alınmış təzə maşınla, ya da istehsalı 5-10 il arasında olan 20-30 min manatlıq maşınla o bunu edə bilməyəcək.

Yeni maşınların təmir və servis xərcləri dəfələrlə baha başa gəldiyindən bu maşınlarla həmin işi görməsi mümkün olmayacaq. Demək belə vətəndaşlara dövlət uzun müddətli kredit verməlidir ki, o ili nisbətən yeni olan və texniki cəhətdən daha yaxşı vəziyyətdə olan başqa bir işlənmiş maşın ala bilsin. Məsələn, 3 min manatlıq xarab maşınının əvəzinə 10 min manata daha yaxşı vəziyyətdə olan işlənmiş maşın ala bilsin. Bu halda dövlət onun maşınını bazar dəyərinə- 3 min manata qəbul etməli, ona 7 min manat krediti 5-10 il müddətinə cüzi faizlə verməlidir. Yalnız bu halda köhnə və yararsız avtomobil sahibləri bunda maraqlı ola bilərlər.

### Köhnə yox, nasaz maşınlar yığışdırılmalıdır

Bir çox maşınların istehsal ili çox köhnə olsa da, texniki vəziyyətləri sazdır və ya demək olar ki, ideal vəziyyətdədir. Hətta yaşı 50 ildən çox olan retro avtomobillərin qiyməti çox bahadır. Dünyanın bütün ölkələrində 50-100 arası yaşı olan avtomobillər istifadə olunur, əlbəttə, texniki vəziyyətləri normal halda. Demək avtomobillərə yaşına görə yox, texniki vəziyyətinə görə yanaşılmalıdır. Əgər avtomobil texniki baxışdan keçirsə demək istifadəyə yararlıdır.

Və ya əksinə, elə maşınlar var ki istehsal ili nisbətən yenidir, amma ağır qəza keçirib və ya çox pis istifadə edildiyindən texniki vəziyyəti bərbad haldadır. Yəni, 10 ilin maşını 30 ilin maşınından daha pis vəziyyətdə ola bilər. Lakin bazar dəyəri 10 min manatdan aşağı deyil. Bu halda həmin maşın dövlət necə, hansı qiymətə qəbul edəcək? Sahibi o maşını 1-2 min manata verməyəcək. Bundansa detallarını söküb satsa dəfələrlə çox gəlir əldə edər.

Göründüyü kimi, bu proqramla bağlı hələ də aydın olmayan xeyli mürəkkəb məsələ var. Elə bir optimal yol tapılmalı və şərtlər elə ədalətli olmalıdır ki, köhnə avtomobil sahibləri bunda maraqlı olsun.

### Avtomobil istehsalı, idxalı və satışı haqda

Son dövrlərdə hər il ölkəyə 50 mindən çox avtomobil gətirilir. 2021-ci ildə bu rəqəm 85 minə yaxın olub. Son 5 ildə hibrid maşınların idxalı 40 dəfə artıb. Təəssüf ki, belə bir böyük bazarda yerli yığımın payı çox azdır.

Əgər vaxtında burada hibrid və elektromobil yığımı təşkil olunsaydı indi yerli zavodlar on minlərlə maşın satmış olardılar. Yenə də gec deyil. Bu maşınlara böyük tələbat var. Xüsusən də, taksi sahəsində.

Yerli avtomobil sənayesinin inkişafı üçün 2 yol var. Birincisi qeyd etdiyimiz dövlət proqramının qəbul olunması, geniş miqyasda və sərfəli şərtlərlə tətbiqi, digəri isə bütün dövlət orqanlarının yalnız yerli yığım avtomobilləri almasının xüsusi qərarla məcburi xarakterə salınması.

Ən əsası, bu proqram optimal və ədalətli şəkildə həyata keçirilsə, ölkənin avtomobil parkı 5-10 il ərzində əsaslı şəkildə təzələnə bilər. Nəticədə həm qəzaların və ölümlərin sayı azalar, həm də ekologiyamız daha az korlanar. Azərbaycanda İran, Rusiya və Çin avtomobillərinin yığım zavodları var. Yeni zavodlar açmaq da olar. Yerli yığımı genişləndirmək və ölkənin tələbatını tam ödəməklə yanaşı, digər ölkələrə ixrac da etmək olar. Sürücülərin çoxu qeyd edir ki, bu maşınlar arzuolunan keyfiyyətdə deyil, üstəlik kredit şərtləri uyğun deyil. Əgər bu məsələ həll edilsə, yerli maşınları alanların sayı artar.

### Dövlət orqanları yerli maşınları almalıdırlar

Yerli avtomobillərin ən böyük payı dövlət orqanlarında ola bilərdi ki, bu da müxtəlif səbəblərdən baş tutmadı. Bir neçə il əvvəl ölkə prezidenti dövlət orqanlarını yerli maşınları almağa çağırdı. İlk vaxtlar bu çağırışa cavab olaraq bəzi dövlət orqanları öz ehtiyacları üçün yerli yığım maşınları alsalar da, sonralar bu proses dayandı. Sanki qısa müddətli bir kampaniya xarakterli olaraq qaldı. Bu gün biz əksər dövlət orqanlarının, idarə, təşkilat və müəssisələrinin maşınlarının xarici istehsal olduğunu görürük. Halbuki bu avtomobillər yerli maşınlardan 3-5 dəfə bahadır.

Hansısa müdirin və ya məmurun 50-100 minik maşında gəzməsi vacib deyil, dövlətin pulunu buna xərcləməyə dəyməz. Ona görə də, hesab edirik ki, bu tələb rəsmi və qəti olmalıdır. Bütün dövlət təşkilatları yerli avtomobil almalıdırlar. Bu halda avtomobil sənayesi sürətli inkişaf edər. Getdikcə ehtiyat hissələrinin çoxunun ölkəmizdə istehsalı tətbiq oluna və böyük bir sənaye sahəsi yaranar. Qeyd etmək lazımdır ki, Azərbaycanda demək olar ki, əksər sinif maşınlar yığılır- sedan, krossover, pikap, universal, xeçbek və s. Əgər dövlət orqanları, məmurlar, nüfuzlu şəxslər nümunə göstərib bu maşınları alsalar, adi vətəndaşlar da alar.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# İRAN: nə üçün məhz Zəfərdən sonra?..




İran İslam Respublikasının hakim dairəsi olan molla rejimi tarixin bütün dövrlərində Azərbaycana qarşı heç də birmənalı fikirdə olmayıb. Bunun da elə tarixi səbəbləri var. İranda milyonlarla azərbaycanlının yaşaması, onların hər an azadlıq mübarizəsinə qalxması qorxusu, zamanında bir dövlətin iki hissəyə bölünməsi məsələsinə qayıtması, bununla bağlı tələbləri Azərbaycanın tarixi torpaqlarında köklənmiş molla rejiminin daim qorxusu, təşvişi, həyəcanı olub. Bu səbəblərdən də o tayda yaşayan azərbaycanlıların zaman-zaman öz dillərində danışmaq, təhsil almaq və digər sosial hüquqlarını məhdudlaşdırmaqla onları elə qorxulu bir rejimin vətəndaşına çevirməyə çalışıblar ki, səsləri çıxmasın, başlarını qaldırmasınlar. Lakin molla rejimi unudub ki, onlar azərbaycanlıdırlar, damarlarından azəri qanı axır və istənilən vaxt bu qan coşub o insanları azadlıqları, hüquqları uğrunda mücadiləyə səsləyə bilər.

İran İslam Respublikasının son dövrlər Azərbaycana qarşı münasibəti göz qarşısındadır. Bütün bu hadisələrin fonunda İran parlamentinin Azərbaycanın İsraildə səfirlik açmasını pisləyən bəyanat qəbul etməsi həddini aşmaq, siyasi riyakarlıq libasını geyinib əsl sifətini nümayiş etdirməkdir. Tarixin bu bəyanataqədərki səhifələrini çevirib yaşananları gözdən keçirməklə İran molla rejiminin əsl sifətini bir daha görmək yerinə düşər.



## Birinci Qarabağ Müharibəsindən İkinci Qarabağ Müharibəsinədək...

Azərbaycanın qonşularına bir nəzər salaq. Tale yazımız olan Ermənistan və İran. Əgər Ermənistan ərazilərimizə bir neçə yüzillik boyu göz dikib torpaqlarımız hesabına "böyük Ermənistan" yaratmaq xülyasında olubsa, İran isə Azərbaycanın həmişə dərdləri ilə baş-başa qalıb problemləri içərisində çalxalanmasını, başının öz dərd-sərinə qarışmasını arzulayıb və bunun reallaşması üçün daim çirkli siyasət yürüdüb. Belə ki, bütün tarixi faktlar təsdiq edir ki, hələ 1990-cı illərdə Birinci Qarabağ Müharibəsində də İran Ermənistanı silah-sursatla, ərzaqla, müxtəlif təlabat malları ilə təmin edirdi. Və bizimlə də üzdə çox səmimi münasibətdə idi. İqtisadi, sosial, mədəni və digər sahələrdə əlaqələrimiz kənardan o qədər normal təsir bağışlayırdı ki... Burada belə bir sual meydana çıxır. İran nə üçün belə edirdi? Bu sualın cavabı isə tariximizi hələ dərslikdən öyrənən məktəbliyə də gün kimi aydındır: Azərbaycanı öz dərd-səri ilə başını qarışdırıb cənubu ona unutdurmaq. Bu səbəbdən də İran molla rejimi daim ölkəmizə qarşı təcavüzkar siyasət yürüdən Ermənistanın yanında olub, onun sözünü deyib, əlindən gələn köməkliyi göstərib.

Birinci Qarabağ Müharibəsindən sonra Ermənistan ərazilərimizə nə qədər silah-sursat toplamışdırsa, beton lövhələr yığmışdırsa, hamısı İranla birgə əməyin nəticələri idi.

Həmçinin də İkinci Qarabağ Müharibəsində-44 günlük müharibə dövründə İran tərəfdən dəfələrlə Ermənistana yardım aparan silah-sursatla, ərzaqla dolu maşın karvanı tutulmadımı? Sonradan ayılan dünyanın bir çox ölkələri müharibəyə öz münasibətlərini bildirəndə, şəhidlərimiz üçün başsağlığı verəndə İran onların arasında əvvəlcə yox idi, sonradan isə ən sonuncu oldu. Bu da, təbii ki, varlığını candərdi göstərmək üçün idi.

## Qarabağda müsəlmanların evləri qarət olunanda İran harada idi ?..

1990-1993-cı illərdə ölkəmizdə hakimiyyətdə olan siyasi fiqurların səriştəsizlik və satqınlıqları nəticəsində torpaqlarımız Ermənistan tərəfindən işğal olundu. Bu işğal dövründə İran İslam Respublikası bir dəfə Ermənistanı etdiyi hərəkətlərə görə ittiham etdimi? Gecə ilə əzəli ata-baba yurdlarından silah gücü ilə çıxarılan müsəlman azərbaycanlıların başına açılan bu müdhiş hadisə üçün Ermənistana "dur" dedimi? Minlərlə soydaşımızın evləri qarət olunanda, daşınanda, qapı-pəncərəsi, dam örtüyü çıxarılıb İrana satılanda molla rejimi bu insanların onların din qardaşları olduğunu xatırladımı? Onların vəziyyətinə reaksiya verdimi? Əksinə, ürəklərində böyük bir təntənə yaşadılar, bayram etdilər. Bu münaqişənin uzanmasını arzuladılar. "Hə, artıq cənub tərəfi Azərbaycan illərlə yada sala bilməz",- dedilər? Bəli, belə də etdilər. Çünki o fikirlərdə olmasaydılar, müsəlmançılıq xətrinə minlərlə insanın dərdinə şərik olardılar. Ermənistana silah verə bildikləri kimi, Azərbaycanın da yanında ola bilərdilər. Onlardan heç kim torpaq istəmirdi. Sadəcə o taydakı azərbaycanlıların xoşbəxt yaşamasını arzulayırdıq.

İranla dostluq əlaqələrimiz vardı. 30 ildə etdikləri bütün hərəkətləri, siyasi gedişləri bilə-bilə münasibətləri davam etdirirdik. Çünki biz qonşuluqda əsilzadəliyimizi təsdiq etmiş bir xalqıq. Hər dəfə etdikləri hərəkətlər İrana xatırladılırdı, bəlkə bir gün səhvlərini başa düşmələri üçün vaxt verilirdi. Lakin İran molla rejimi üzdə bir, arxada bir planı ilə davam edirdi. Düşünürdü ki, bilinməyəcək, lakin təxmin etmirdi ki, Azərbaycanın hüquq-mühafizə orqanlarının bilmədiyi məsələ yoxdur.

Beləliklə, bir-birindən doğan onlarla sual çıxır meydana.

## Bəs məscidlərimiz təhqir olunanda İslam ölkəsi nə düşünürdü?

Yaxşı, Qarabağda qarət edildikdən sonra sökülən, yandırılan müsəlman evlərinə İranın reaksiya vermədiyini bir kənara qoyaq. Düşünəndə ki, molla rejimi öz ölkəsində yaşayan müsəlmanlara hansı əzabları verir, onların sosial hüquqlarını ayaqlar altına alır, dar ağaclarında günahsız insanların həyatını nöqtələyir, insanlar öz ana dillərində təhsil ala bilmirlər, İranın sadəcə bir qonşu kimi bizim soydaşlarımızın başına gətirilən oyunlara reaksiyasız qalması aydın məsələdir. Bəs məscidlər, Allahın evi sayılan, müsəlmanın yaradanına ibadət etdiyi müqəddəs məscidlərin təhqir olunmasına necə, İran reaksiyasız qala bilərdimi? Bu sükut İslam aləminə, müsəlman dininin qanunlarına qarşı saygısızlıq deyildimi?




Ermənilər məscidlərimizi dağıdıb, müqəddəs ocaqlara İslamda haram buyurulmuş heyvanları bağlayanda İran bir İslam ölkəsi kimi susa bilməzdi. Bu, ən azından günah idi. Lakin İran susurdu. Sanki bu hadisələri nə qulaqları eşidirdi, nə də gözləri görürdü. Hansı ki, işğal dövründə bizdən fərli olaraq onlar gedib görə bilirdilər. Bəs buna nə ad vermək olar?

İndi fələstinliləri düşünən olublar. Lakin azərbaycanlılar əsla yada düşmürdü. Sual olunur, nə üçün sənə bu qədər yaxın olan müsəlman qardaşın yox, Fələstin? Məsələ yenə də gün kimi aydındır: Azərbaycan məsələsi. O tay-bu tay məsələsi. Bütöv Azərbaycan məsələsi... Ürəklərində ölçüb-biçdikləri min bir don...

İran unutmasın ki, fələstinlilərin öz dillərində təhsil almaq hüququndan ta azad ibadət etmək haqlarına qədər bütün hüquqları tanınır. Lakin İranda öz hüquqlarını tələb edən müsəlmanlar bir gecənin qurbanına çevrilirlər. Dar ağaclarında təhqir olunurlar. Azərbaycanlılar yaşayan bölgədə zəlzələ baş verir, insanlar min bir əziyyətlə üz-üzə qalırlar, molla rejimi onlarla maraqlanmır, hələ üstəlik yardım etmək istəyənlərə də mane olur.

30 ildə Ermənistan-Azərbaycan münasibətlərini qızışdıran, azərbaycanlıların əzabəziyyətinə göz yuman, dini abidələrə edilən təhqirlərə bir müsəlman kimi göz yuman, bu hadisələrin fonunda Qafanda konsulluq açan İranın Azərbaycanın İsraildə səfirlik açmasını müzakirə etməyə haqqı yoxdur. Bu gün guya fələstinlilərin halına yanan İran bir bizim onlara qarşı münasibətimizə baxsın, bir də özünün. Onda özünü yaxşı görə və tanıya bilər bəlkə...

## Qarabağ Zəfəri ilə uduzan Ermənistanı İran ağladı

44 günlük Vətən müharibəsi dövlətimizin başçısı, Ali Baş Komandanın rəhbərliyi və Milli Ordumuzun gücü ilə Böyük Zəfərlə nəticələndi. Azərbaycan 30 ilin sonunda tarixin 200 illik axarını dəyişdi, işğaldan torpaq azad etdi. Buna sevinənlər də oldu, kədərlənənlər isə daha çox oldu. Onlardan biri də İran molla rejimi idi ki, Ermənistanın halını ağlayanlardan oldu. Yenə də sual çıxır meydan: İran Ermənistanın halını ağlayırdı, yoxsa öz halını? Maraqlıdır, qonşuluqda əsrlərdir, birgə yaşamışıq. Heç bir vaxt Azərbaycan tərəfdən hörmətsizlik, saygısızlıq görməyən, daim dost münasibətlərə dəvət olunan İran nə üçün Zəfərdən sonra bu qədər hiddətlənmişdi? Çünki Azərbaycanın üstünlüyünü həzm edə bilmirdi. Bunun arxasınca nələrin gələcəyi onu qorxudurdu. Elə məhz buna görə də yenə rəzil planlarını həyata keçirməyə başladı.

Bu planlardan birini 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında İrandan olan jurnalistin Vətən müharibəsində terrorçu qruplaşmaların iştirakı iddiası ilə bağlı sualında gördük. Prezident İlham Əliyev bu suala sərt reaksiya verdi: "Siz bunu sual formasında verə bilərsiniz. Ancaq dediyinizin arxasında durmalısınız. Müharibə zamanı hər hansı terrorçu qrupların iştirakıyıla bağlı elə hesabatlar məlumatlar, dəlil, sübut yoxdur. Bu, uydurulmuş məlumatdır. Təəssüf edirəm ki, dost ölkədən olan jurnalist belə bir sual verir. Azadolunma əməliyyatında heç bir terrorçu iştirak etməyib. Bunun heç bir sübutu yoxdur. Bu sadəcə olaraq Azərbaycanı ittiham etməkdir. Bu, Ermənistan tərəfindən ediləndə anlaşılandır. Onlar üçün ağrılı məsələdir ki, onları Azərbaycan əsgəri məhv edib. Sizə tövsiyəm o olardı ki, spekulyasiyalarla məşğul olmayasınız. Siz xanım olaraq dost ölkədən gəlmisiniz. Xahiş edirəm, sualınızda məsuliyyətli olasınız".

Daha sonra Bakıda keçirilən təntənəli Zəfər paradında çıxış edən Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın "Arazı ayırdılar, qum ilə doyurdular, mən səndən ayrılmazdım, zülm ilə ayırdılar" misralarını söyləməsi ilə İran partladı və iç üzünü ortaya qoydu. Şeir parçasına Cavad Zərif özünün Twitter hesabında atmaca ilə cavab yazdı: "Ərdoğana deyilməyibmi ki, Bakıda səhv oxuduğu şeir Arazın şimal bölgələrinin öz doğma torpaqları olan İrandan zorla ayrılmasından bəhs edir! O Azərbaycan Respublikasının müstəqilliyinə qarşı danışdığını başa düşmədimi? Heç kim əziz Azərbaycanımız haqqında danışa bilməz", - yazan İran Xarici işlər naziri əslində Güney Azərbaycana yönəlik misralardan qıcıqlandığını gizlədə bilmədi.

Ardınca İran molla rejiminin Zəngəzur dəhlizinin açılması ilə bağlı narazılıqları ilə qarşıladıq. Ermənistanın sərsəm hakimiyyət nümayəndələrini qızışdırmalarını, onlara ağıl vermələrini, 10 noyabr Bəyannaməsinə əsasən ermənilərin vəzifələrini həyata keçirmələrinə maneçilik yaratdıqlarını müşahidə etdik. İran bu dəhliz üçün tərəfindən yol verilməyəcəyi fikrini də üreyində saxlaya bilmədi. Bəli, bütün bunlar Böyük Zəfərdən sonra molla rejiminin kürkünə birə düşməsindən qaynaqlanmadımı?

Bunlar sadalaya biləcəklərimizin çox az bir qismidir. Bütün olanları gözdən keçirəndən sonra isə belə qənaətə gəlmək olur ki, Böyük Zəfərdən sonra İran əslində Ermənistanı yox, özünü ağlayırdı. Lakin çox ümid edirik ki, İran Parlamentinin əsl dindar üzvləri çoxəsrlik dostluq əlaqələrimizin bir qrup molla tərəfindən yox edilməsinə göz yummayacaq, tezliklə onların riyakarlıqlarını üzlərinə çırpmaqla tarixi münasibətlərimizin və əlaqələrimizin məhv olmasına icazə verməyəcəklər.

**_Mətanət Məmmədova_**

# Heydər Əliyev-100

Əvvəli ötən sayımızda...

# Üstün zəkanın misilsiz xidmətləri

## "Səs" qəzeti redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "dəyirmi masa"lara start verilib

**Üstün zəkaya, nadir siyasi qabiliyyətinə və mükəmməl dövlət idarəetməsinə görə ad qazanmış Ulu Öndər Heydər Əliyev nəinki postsovet məkanının, nəinki Türk dünyasının, eləcə də bütün dünyanın diqqət mərkəzində idi. Onun hadisələri dolğun proqnozlaşdırmaq qabiliyyəti və dərin düşüncəsi sayəsində Azərbaycan bu qədər güclənə və özünü təsdiqləyə bildi. Bu gün bütün azərbaycanlılar Azərbaycan dövlətinin varlığı üçün o böyük insana əbədi olaraq borcludurlar.**



Ümummilli Lider Heydər Əliyevin mükəmməl analiz qabiliyyəti, dövlətçilik təcrübəsi, uzaqgörənliyi ona ölkəmizi idarə etdiyi dövrdə ən obyektiv və optimal qərarlar verməyə imkan yaratdı. Dövlətçilik bacarığı və respublika təsərrüfatını dərindən bilməsi qarşıya qoyulmuş məqsədlərə çatmasında ona kömək oldu.

"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "dəyirmi masa" təşkil olunub. "Dəyirmi masa"dakı müzakirələrə Milli Məclisin komitə sədri Tahir Rzayev, Milli Məclisin komitə sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Azər Badamov, Komitə sədrinin müavini Jalə Əliyeva, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Asif Əsgərov, Yeni Azərbaycan Partiyası Qaradağ Rayon təşkilatının sədri Qafar Əliyev, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının Gənclər Birliyinin fəalı Fərid Mustafayev iştirak ediblər.



Dəyirmi masa söhbətini giriş sözü ilə "Səs" qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev açdı. O qeyd etdi ki, "Səs" qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, əhəmiyyətli mövzular çərçivəsində hər zaman "dəyirmi masa"lar təşkil edib və bu masa ətrafındakı söhbətlər həmişə maraqla qarşılanıb. Budəfəki "dəyirmi masa" söhbətinin mövzusu isə adı Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan Ümummilli Lider Heydər Əliyev və Onun Azərbaycanın taleyindəki əhəmiyyətli xidmətləridir: "Cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Ümummilli Lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində - 1969-cu ildən başlayaraq Azərbaycanın birinci katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Bu gün qonaqlarımızla Ulu Öndərin xatirəsini yad etməklə yanaşı, Onun Azərbaycanın müstəqilliyi uğrunda həyata keçirdiyi işlərdən danışacağıq".

**Yeni Azərbaycan Partiyası Qaradağ Rayon təşkilatının sədri Qafar Əliyev** Ümummilli Lider Heydər Əliyev ilə bağlı xatirələrindən danışdı. O bildirdi ki, həm Naxçıvanda olarkən böyük şəxsiyyətlə görüşmək imkanı olub, həm də onun rəhbərliyi altında Prezident Administrasiyasında işləmək şansı olub: "Dahi şəxsiyyətlə bir neçə dəfə səfərdə olmaq imkanım da olub, iki dəfə Amerikaya səfər etmişik, Yaponiyaya birlikdə səfərimiz olub, Avropa ölkələrinə səfər etmişik.



1997-ci ildə iyulun 23-dən avqustun 3-dək Amerika Birləşmiş Ştatlarında səfərdə olmuşuq. Bu, çox böyük bir səfər idi. Açığını deyim ki, mən bu səfərə gedənədək hesab edirdim ki, Heydər Əliyev sosialist ölkələrinin tanıdığı və bildiyi bir siyasətçidir, siyasi büro üzvüdür və ABŞ-da hansı dərəcədə nüfuzunun ola biləcəyi barədə məlumatsız idim.

Mən bu səfərdə həqiqi mənada yanıldığımı anladım. Heydər Əliyev ABŞ-da elə bir formada qarşılandı, elə qəbul olundu ki, sanki bir dünya lideri kimi. Ağ Evin yanındakı tarixi qonaq evində yalnız mötəbər liderlərin gecələməyinə icazə verilirdi. Hətta ABŞ prezidenti çıxışında dedi ki, Amerikaya gələn nadir dövlət başçılarına izin verilir həmin qonaq evində gecələsin. Səfər edən prezidentlərin əksəriyyəti otellərdə qalır. Biz nümayəndə heyəti olaraq oteldə qalırdıq, orada görürdük Cənubi Amerika ölkələrinin prezidentləri, Braziliyanın, Argentinanın prezidentləri oteldə qalır. Onların qarşılanması üçün xüsusi işlər görülməmişdi.

Amma Heydər Əliyevin qarşılanması üçün ABŞ-da böyük hazırlıq işləri görülmüşdü.

Məsələn, Amerikada kortej ənənəsi yoxdur, amma Azərbaycanda və SSRİ-də olan ənənəyə uyğun olaraq Heydər Əliyevi kortej müşaiyət edirdi, maşın karvanı onu görüşlərə aparırdı, geri qaytarırdı. Heydər Əliyev orada müəyyən görüşlər keçirdi. Amerika konqresmenləri, senatorlar, dövlət katibi, nazirlər ilə görüşləri oldu, əksər görüşlərdə mən də iştirak etdim. Xatırlayıram, oradakı konqresmenlərdən biri dedi ki, siz ABŞ prezidenti olmağa layiq siyasətçisiniz.

Bundan əlavə, Henri Kissincer ilə səhər yeməyində bir görüş oldu, mən də cənab prezidentlə iştirak etdim. Orada Kissencer Heydər Əliyevə dedi ki, siz təsəvvür edərdinizmi bir vaxtlar SSRİ-nin əsas rəqibi olan ABŞ-da səfərdə olacaqsınız. Heydər Əliyev ona bildirdi ki, mən SSRİ-də siyasi büro üzvü olanda da və indi də belə düşünürəm qarşıdurma lazım deyil. Kissencer verdiyi sualdan utandı”.

**Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Asif Əsgərov** öz çıxışında bildirdi ki, Ulu Öndər haqqında saatlarla, günlərlə danışmaq olar: ”Onun dövlətimiz və dövlətçiliyimiz uğrunda gördüyü işlər danılmazdır. O yalnız kağızlarda Milli Lider adlandırılmır. Milli Lider formalaşması elə-belə olmur. Hər bir ölkənin lideri, rəhbəri olur, amma hamısı Milli Lider ola bilmir. Heydər Əliyev istər sovetlər dövründə, istərsə də müstəqilliyimiz dövründə həqiqətən də xalqının milli lideri səviyyəsinə yüksəlmiş insan idi. İnsan azadlığının təmin olunması, plüralizmin və söz azadlığının təminatı, hüquqi islahatların aparılması istiqamətində müstəsna xidmətləri olub.





O ikinci dəfə hakimiyyətə qayıdanda baza olaraq öz dövlətçilik prioritetlərini ortaya qoydu. Nə idi bu prioritetlər - ölkədə bazar iqtisadiyyatının formalaşdırılması, ordu quruculuğunun formalaşdırılması, azərbaycançılıq və milli dəyərlər təbliğ olunmalıdır, ən vacibi isə ölkədə hüquqi islahatlar aparılmalıdır. Bu istiqamətdə önəmli addım, ilk olaraq, Konstitusiya Komissiyasının yaradılması oldu. Özü ölkə rəhbəri idi, işləri çox idi, amma yenə də Komissiyaya özü rəhbərlik etdi. O zamanlar mən siyasi idarəetmə üzrə təhsil alırdım, çox maraqlanırdım bu məsələlərlə, orada bütün sahələrdə olan məsələlərə fikir bildirməsi, hər xırdalığa diqqət yetirməsinin şahidi oldum. Azərbaycanda vətəndaş cəmiyyəti, mülki cəmiyyət anlayışlarını konstitusiyamıza Ulu Öndərimiz gətirdi”.

**Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının Gənclər Birliyinin fəali Fərid Mustafayev** öz çıxışında Ümummilli Lideri Azərbaycanın əbədiyaşar memarı adlandırdı: ”Müstəqilliyimizin ilk illərində Azərbaycan ağır illər yaşayırdı. Azərbaycanın dünya xəritəsindən silinmə təhlükəsi vardı.



Səriştəsiz insanların hakimiyyətə gələrək ölkədə xaos, anarxiya yaratması vətəndaş müharibəsinə təkan verdi. Hakimiyyətin xəyanəti nəticəsində ölkəmiz 20 faiz torpağını itirdi. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə dəvət edilməsi nəticəsində Azərbaycan bundan sonrakı inkişafına qədəm qoydu. Əgər həmin vaxt Ümummilli Lider hakimiyyətə gəlməsəydi Azərbaycanın taleyi bu günədək bəlli olmayacaqdı.

Onun çoxşaxəli fəaliyyətini hər sahədə görmək olurdu. Bu istiqamətlərdən biri də gənclər siyasəti idi. Azərbaycanda gənclər siyasətinin əsası 1994-cü ildə Heydər Əliyev tərəfindən qoyulub. Məhz həmin illərdə Gənclər və İdman Nazirliyi təsis edildi, sonrakı illərdə Azərbaycan Gənclərinin Qurultayları çağırıldı. Bu qurultaylardan sonra artıq Azərbaycanda gənclər siyasətinin prioritet istiqamətlərindən olan təşkilatlanma, vətənpərvərlik, xaricdə təhsil gənclərdə canlanma yaratdı. Bu gedişatın nəticəsində Heydər Əliyev 2 Fevral - Gənclər Gününü təsis etdi. Bu günün təsis edilməsindən sonra nəinki paytaxtda, hətta Azərbaycanın bütün bölgələrində gənclərin inkişafına start verildi. Bu günədək Azərbaycanda 4 dövlət proqramı, regionlarda 40-a yaxın gənclər mərkəzi, 50-yə yaxın olimpiya mərkəzləri tikilib ki, bu da gənclərə olan diqqətin bariz nümunəsidir. Biz bu gün Ümummilli Liderin layiqli varisi olan İlham Əliyevin ətrafında sıx birləşmişik”.

***Lalə Mehralı***

# “Azərbaycan-İsrail münasibətləri minillik tarixə malikdir”

“Azərbaycan – İsrail münasibətləri hər zaman ən yüksək səviyyədə olub və minillik tarixə malikdir. Əsrlərdir ki, Azərbaycan və Yəhudi xalqı arasında sarsılmaz dostluq münasibətləri mövcuddur. Məhz bu cür münasibətlərin nəticəsidir ki, 18 oktyabr 1991-ci ildə müstəqilliyimizi elan etdikdən qısa zaman sonra 25 dekabr 1991-ci ildə İsrail dövlətimizi tanımış və 7 aprel 1992-ci il tarixindən etibarən ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.

Onun sözlərinə görə, İsraili Azərbaycana yaxınlaşdıran başlıca səbəb təbii ki bizlərin yəhudilərə olan baxış tərzimizlə alaqədardırdir: ”Azərbaycan keçmiş dövrdən indiyə qədər anti-semitizmin yaşanmadığı, bunun üçün də yəhudi əhalinin sıx məşkunlaşdığı ərazilərdən olub.

İsrail istər birinci Qarabağ savaşı, istərsə də sonrakı dövrdə daim Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və bütün Beynəlxalq Platformalarda da Azərbaycanın haqq səsinə səs verib. Hələ 90-cı illərin əvvəllərində, yəni birinci Qarabağ savaşı dönəmində Qərb ölkələri Azərbaycana silah-sursat satmaqdan imtina etdiyi bir zamanda İsrail yenə də haqq-ədalətin yanında oldu, ölkəmizin haqq səsinə dəstək olaraq öz hərbi arsenalını Azərbaycanın üzünə açdı. Artıq uzun illərdir ki, rəsmi Təl-Əviv Azərbaycanın müdafiə sənayesinin inkişafında, eləcə də digər müstəvilərdə ölkəmizlə yaxın əməkdaşlığa malikdir”.

Politoloq sözlərinə belə davam edib: ”İsrail ilə Azərbaycan arasında çox geniş





iqtisadi-ticari əlaqələr də mövcuddur. Bu iqtisadi əlaqələr təkcə tarixi münasibətlərdən qaynaqlanmır. Eyni zamanda İsrail üçün Azərbaycanın strateji və iqtisadi önəmindən qaynaqlanır. Azərbaycan ilə İsrail arasında olan münasibətlərin ən başlıca sahəsi heç şübhəsiz ki, iqtisadi-ticari sahədir. Ölkəmiz geniş həcmə malik neft və qaz yataqlarının olduğu Xəzər hövzəsində yerləşir ki, bu da dövlətimizi İsrail üçün olduqca əhəmiyyətli edir. Digər tərəfdən məsələyə baxsaq, İsrail də çox güclü sənaye, texniki avadanlıqlar və hərbi sursatlar istehsal edir. Bunlar da ölkəmiz üçün olduqca əhəmiyyətli hesab olunur. Bütün bunların təzahürü olaraq indiyə qədər keçən dövr ərzində hər iki ölkə arasında olan iqtisadi-ticari əlaqələr yüksək templə artmışdır.

Heç şübhəsiz ki, İsraildə səfirliyimizin açılması ilə indiyə qədər onsuz da ən yüksək səviyyədə olan münasibətlər daha da inkişaf edəcək və əməkdaşlığımız üçün yeni imkanlar meydana çıxacaq. Bu imkanların hər iki ölkənin siyasi strateji və təhlükəsizlik maraqlarına xidmət edəcəyi şübhəsizdir.

Digər bir tərəfdən isə bu gün Azərbaycan-İsrail münasibətləri yalnız ikitərəfli deyil, həm də regional əhəmiyyət daşıyır. Məlumdur ki, Türkiyə ilə İsrail uzun sürən danışıqlardan sonra qarşılıqlı olaraq hər iki ölkədə səfirliklərin açılması barədə yekun razılığa gəldilər. Şübhəsiz ki, iki ölkənin əlaqələrinin bərpasında Azərbaycanın da böyük rolu olub və bunu təkcə biz yox, dünyanın aparıcı analitikləri də deyir. Azərbaycan olaraq biz Türkiyə-İsrail münasibətlərinin normallaşmasında təbii olaraq maraqlı olmuşuq. Bizə dost olan iki ölkənin münasibətlərinin normallaşması geosiyasi münasibətlər kontekstində mövqelərimizin daha da möhkəmlənməsinə xidmət edir. Başqa sözlə desək Azərbaycanın İsraildə səfirliyinin açılması, Türkiyə-İsrail münasibətlərinin normallaşması Azərbaycan - Türkiyə - İsrail geosiyasi üçbucağının möhkəmlənməsinə və birgə siyasi fəaliyyətin uğurlu şəkildə tənzimlənməsinə xidmət edir”.

Rəşad bayramov bu cür münasibətlərin təbii olaraq dostlarımızı sevindirdiyi kimi düşmənlərimizi də qəzəbləndirdiyini bildirib: ”Uzun illərdir İsraildən fərqli olaraq müsəlman Azərbaycanın deyil, İslam abidələrini təhqir edən, məscidlərimizi dağıdan, insanımıza qarşı soyqırımlar törədən Ermənistanın yanında olan İran müxtəlif səviyyədə sərsəm bəyanatlarla çıxış edərək Azərbaycan-İsrail münasibətlərini anti İslam mövqeyi kimi təbliğ etməyə çalışır. Amma 3 il bundan qabaq Ermənistan İsraildə səfirlik açarkən niyə susqun qaldığına cavab vermir. Bütün müsəlman dünyası yaxşı bilir ki, İsrail müsəlman Azərbaycan torpaqlarının erməni işğalından qurtulmasına hər cür kömək göstərdiyi halda, “müsəlman” İran bunun əksini edərək təcavüzkar üçün əsl xilaskar qismində çıxış edib. Müsəlman Azərbaycana qarşı Ermənistanın ayaqda qalmasını təmin edib. Odur ki, həm İran həm də Azərbaycan-İsrail münasibətlərini həzm edə bilməyən digər qüvvələr də bilməlidirlər ki, bu münsibətlərin təməlində sülh, əmin amanlıq, inkişaf dayanır və Azərbaycan-İsrail münasibətləri heç bir halda üçüncü dövlətə qarşı yönəlməyib”.

***Banuçiçək Hüseynli***

# 1906-cı ilin 7 aprel günü

## 117 yaşlı "Molla Nəsrəddin" "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım",- deyərək kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrildi

Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən birinə çevrilən "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin işıq üzü görməsi böyük əks-səda doğurdu. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmasına icazə istədi. Bu təşəbbüsü o zaman Qafqazda Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri bəyəndi, bu barədə xəbərlər yaydılar. "İrşad", "Həyat", "Tərcüman", "Vozrojdeniye", "Kaspi", "Baku", "Novoye obozreniye", "Kavkazskoye utro", "Na povorote" qəzetləri "Molla Nəsrəddin"i çıxarmaq təşəbbüsü barədə oxuculara xəbər verdilər.

1906-cı ilin 7 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın "Molla Nəsrəddin"in təməl daşı qoyuldu. Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrildi. Həcmi kiçik formatda olan "Molla Nəsrəddin"in çapı həftədə bir dəfə nəzərdə tutulmuşdur. Proqram səciyyəvi baş məqalədə isə Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".







### "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam"

"Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Mirzə Cəlil "Molla Nəsrəddin"də əsas sima, məsləhətçi və böyük yoldaş idi. Ədib özü bu barədə yazır: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam".

Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis 7 aprel" sərlövhəli baş məqaləsi, "Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu. Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsindən çox keçmədi ki, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər. Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzulara çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur. Məhəmmədhəsən əmilərin, novruzəliləri, zeynəblərin həyat hekayəsini yazan Cəlil Məmmədquluzadəni baş verən hadisələr rahat yaşamağa qoymurdu. Həqiqətən də Cəlilin qəlbində vətən sevgisi sonsuz idi. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, özünəməxsus olan məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.

### "Molla Nəsrəddin"i zəmanə özü yaratdı"

Əlbəttə ki, satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. "Molla Nəsrdddin"i zəmanə özü yaratdı" - deyə Cəlil Məmmədquluzadə yazırdı. Molla Nəsrəddin" məcmuəsi obrazlı desək, xalq ruhundan, folklorundan bəhrələnməklə öz fikrini oxuculara çox gözəl, məharətlə çatdırmaq bacarığına malik idi. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi. İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maariflənməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. Azərbaycan ictimai mühitində böyük rol oynayan "Molla Nəsrəddin" ilk sayından başlayaraq düzü-düz, əyrini-əyri deməyi özünə yol seçmişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.

Xalqın ziyalı sözünə, ziyalı fikrinə ehtiyacı yarandığı bir zamanda satirik qələmlə onun tələbatını ödəmək əsl hünər və vətənpərvərlik idi. Müsəlman dünyasını bürüyən geriliyi xalqın avamlığında görən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının çapının nə dərəcədə əhəmiyyətə malik olduğunu dərk edirdi. O, ziyalıları yalnız əqidəyə, məsləkə xidmət edib, tutduğu yolda qələmi silaha çevirərək, dövrün haqsızlıqlarını açıq-aşkar ifşa edərək, hakim qüvvələri qamçılamağa, öldürücü satira atəşinə tutmağa çağırırdı. Onların yaradıcılığının qayəsi insan ideologiyasını dəyişdirib, dövrün tələbləri səviyyəsində görmək idi. Belə ki, qarşıya qoyulan məqsəd, önəmli məsələ cəmiyyətdəki ziddiyyətlərin yaranma səbəbini göstərmək, xalqı ictimai fəaliyyətə səsləndirmək, qabaqcıl ideyalar əsasında cəmiyyəti mütərəqqi ideyalara qovuşdurmaq idi.

### "MOLLA NƏSRƏDDİN" BİR MƏKTƏB OLDU

Qısa bir zaman məsafəsində, "Molla Nəsrəddin" məşhur satirik jurnal kimi tanındı. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Sur-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yeşən" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edək ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi. Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu.

### "MOLLA NƏSRƏDDİN" RUHUNU, CƏLİL MƏMMƏDQULUZADƏ ƏNƏNƏLƏRİNİ YAŞADANLAR

Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. "Molla Nəsrəddin" jurnalının davamçıları yetişdi. 1952-ci ildə "Kirpi" jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. "Kirpi" jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra "Kirpi"nin davamçıları "Şeytan", "Mozalan", "Karikatura", "Dəryaz" kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən bu qəzet və jurnallar "Molla Nəsrəddin" ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı.

Onu da vurğulayaq ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. "Molla Nəsrəddin" jurnalının davamçısı "Kirpi" olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

Bu gün "Molla Nəsrəddin" jurnalının 117 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Çətin, təqiblərə məruz bir dövrdə cəsarətli addımlar atıb, dövrün mənzərəsini satirik ruhla qələmə almaq nə qədər çətin olsa da "Mola Nəsrəddin" amalına sadiq qaldı. Bu gün isə Azərbaycanda azad söz, azad mətbuat var, açıq cəmiyyətdə yaşayırıq. Senzuranın olmadı bir zamanda qələm sahibləri fikir və düşüncələrini sərbəst şəkildə qələmə alırlar. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, onun yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə çağırır.

Sonda bu gündə "Molla Nəsirəddin"dən daha bir nümunə gətirmək yerinə düşər: "Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Heydər Əliyev-100

***Artıq iki onillikdən çoxdur ki, geridə qoyduğumuz keşməkeşli XX əsr öz zaman kəsimində bəşəriyyətə, ayrı-ayrı xalqlara bir çox görkəmli elm xadimləri, müdrik, təcrübəli və qətiyyətli rəhbərlər, son dərəcədə bacarıqlı dövlət başçıları bəxş etmişdir. Bu gün biz fəxrlə deyə bilərik ki, belə xoşbəxt xalqlardan biri də bizik - Azərbaycan xalqı. Biz ilk növbədə ona görə xoşbəxt xalqıq ki, tariximizdə Heydər Əliyev kimi dühа, müdrik rəhbər var idi və o bu gün də hər birimizin qəlbində əbədiyaşar Lider olaraq qalmaqdadır. Və bu gün biz dünyanın hansı nöqtəsində oluruqsa-olaq, Heydər Əliyev dedikdə təsəvvürlərdə XX-XI əsrlərin görkəmli siyasi və dövlət xadimi, dünya miqyasında tanınan və qəbul edilən bir şəxsiyyət canlanmaqdadır. Əbədiyaşarlıq da məhz bu kimi xüsusi dəyərlərə söykənir.***



## Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz xilas edildi



*Nazim İsmayılov,*
*Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü*

Ulu Öndər Heydər Əliyev məhz 40 ildən artıq çoxcəhətli və nəhəng, eləcə də uzaqgörən siyasi fəaliyyəti və müdrik rəhbərliyi sayəsində, həmçinin Azərbaycan xalqının tarixində, ictimai-siyasi həyatında böyük rol oynaması ilə Ümummilli Lider statusunu qazanmışdır. Heydər Əliyevin xarizmasında və praqmatikliyində birləşən bir çox xüsusiyyətləri - möhkəm iradəsi, istənilən hadisəyə nüfuzetmə qabiliyyəti, qibtə doğuracaq hafizəsi, bəlağətli nitqi - bütövlükdə isə mükəmməl liderlik keyfiyyətləri onunla təmasda olan, həmsöhbət olan hər kəsi heyran edirdi. Məhz Heydər Əliyev adına bağlı olan bu reallıqlar sayəsində bugünün güclü və qüdrətli Azərbaycanı dünya birliyindəki yerini və rolunu möhkəm dayaqlara əsaslandırıb.

Bəli, Azərbaycan tarixində fərəhli, şərəfli günlər çoxdur. Ancaq onların içində 15 iyun 1993-cü il tarixi xüsusi yeri tutur. Çünki bu tarix xalqımızın qurtuluşu, xilası günü olaraq öz adını mübarizlik, əzmkarlıq səhifəsinə yazdı.

Xalqımızın qəhrəman oğul və qızlarının böyük şücaətləri və şəhidlik zirvəsinə yüksəkmələri sayəsində başlayan nəhəng xalq hərəkatı sonda öz bəhrəsini verdi - 1991-ci ilin oktyabrında Azərbaycan özünün itirilmiş müstəqilliyini yenidən bərpa etdi. Söz yox ki, belə bir böyük tarixi hadisə, xalqımızın həyatında yeni bir dönüş nöqtəsi idi. Biz yenidən bir çox xalqlar kimi azad və müstəqillik şəraitində yaşamaq, müstəqil dövlətimizi yaratmaq imkanı əldə etdik. Dünya dövlətləri sırasına çıxmaq, Azərbaycanın adını, Azərbaycan dövlətini dünyaya tanıtmaq imkanı qazandıq. Ancaq çox çətinliklə və canlar, qanlar hesabına qazanılmış müstəqilliyi qoruyub-saxlamaq, yenidən 1918-20-ci illərdəki səhvləri təkrarlamamaq əsas vəzifələrdən biri olmalı idi. Fəqət, təəssüflər olsun ki, uzun illər həsrətində olduğumuz müstəqilliyin elə ilk illərindəcə hər birimiz ağır, məşəqqətli günlərlə qarşı-qarşıya qaldıq, xüsusilə, 1990-1993-cü illərdə çox böyük çətinliklər, bəlalarla üzüzə dayandıq. Qarışıqlıq, anarxiya, xaos, hətta müstəqilliyimizi itirmək təhlükəsi ilə üzləşdik. AXC-Müsavat cütlüyünün özbaşınalıqları, hay-küylə hakimiyyətə yiyələnmələri, başıpozuq və naşı iqtidarın ard-arda dövlət maraqlarına etdikləri xəyanətləri, güc strukturlarının reket silahlılarına çevrilərək xalqın başına min-bir oyunlar açması - bu kimi çoxsaylı faktların hər biri yenicə qazanılmış müstəqilliyimizin kövrək təməllərini sarsıtmağa başladı.

Üstəlik, Ermənistanın işğalçılıq siyasəti və bu siyasətin qarşısının alınmaması, torpaqlarımızın ard-arda işğala məruz qalması, cəbhə bölgələrində kütləvi şəhidlərin verilməsi, insanlarımızın öz doğma yurd-yuvalarından deportasiyalara məruz qalmaları vəziyyətin nəzarətdən çıxması ilə nəticələnmişdi.



Belə bir acınacaqlı mühitdə digər tərəfdən də vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. 1993-cü ilin iyununda ölkə qardaş qırğınının astanasında dayanmışdı. Qarabağda və ətraf rayonlarda vəziyyətin acınacaqlı olmasına rəğmən, daxili qarşıdurmalar nəinki müstəqilliyimizin itirilməsi, bütövlükdə Azərbaycanın dünyanın xəritəsindən silinmək təhlükəsi faktını meydana çıxardı. Bu, bilavasitə Azərbaycanın lidersizliyinin bariz sübutu idi, ölkənin isə güclü bir liderə ehtiyacı var idi. Böyük çaşqınlıqlar içərisində qalan xalq hansı səmtə gedəcəyini bilmirdi. Məhz belə bir şəraitdə xalq üzünü yeganə xilaskarı olan Heydər Əliyevə tutdu. Çünki xalq başa düşürdü ki, onu bu çətin və ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi bacarıqlı, uzaqgörən, müdrik və qətiyyətli bir rəhbər çıxara bilər.

Beləliklə, Heydər Əliyevin xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan tarixinin, bərpa edilmiş müstəqilliyimizin yeni bir dövrünün əsasını qoydu, Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, müstəqilliyimiz xilas edildi. Bu gün Ulu Öndər Heydər Əliyevin müxtəlif cəhətlərini, fəaliyyət istiqamətlərini əks etdirən yüzlərlə kitablar yazılıb, elmi məqalələr dərc edilib. Lakin danılmaz fakt budur ki, əgər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, 1991-cı ildən yenidən bərpa edilmiş müstəqilliyimizin taleyi elə 1993-cü ildə başa çatmış olacaqdı. Reallıq həm də onda idi ki, biz bu gün çətinliklə əldə olunmuş müstəqilliyimizi yaşamayacaq, azadlığımızı dadmayacaqdıq.

Bəli, Azərbaycanı parçalanma və məhvolma təhlükəsindən xilas edə biləcək yeganə bir şəxsiyyət Heydər Əliyev idi. Elə buna görə də Heydər Əliyev xalqın qəti iradəsi ilə, demokratik və qanuni yolla yenidən ölkə rəhbərliyinə qayıtdı. Təsadüfi deyil ki, tale özü Azərbaycanı yenidən dirçəltmək, onun müstəqilliyini qorumaq kimi çətin və şərəfli bir missiyanı məhz Heydər Əliyevə həvalə etdi. Bununla da illərlə davam edən siyasi hakimiyyət böhranı, anarxiya və özbaşınalığa son qoyuldu. Azərbaycanda yeni tarixi mərhələ - dövlət müstəqilliyinin möhkəmləndirilməsi dövrü başlandı.

Ümummilli Lider Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi demokratik dövlət quruculuğu, iqtisadiyyatın təməllərinin qoyulması, Milli Ordunun formalaşdırılması, xarici siyasətin müəyyənləşdirilməsi və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər görülmüşdür. Ulu Öndərimiz Heydər Əliyev dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirmiş, Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırmış, bununla da ölkəmizə diqqət və maraq güclənmişdir. Siyasi-iqtisadi əlaqələrimiz genişlənmiş, mühüm müqavilə və sazişlər imzalanmışdır.

Siyasi-iqtisadi sabitliyə nail olmaq və Azərbaycanı dünyaya tanıtmaq qarşıda duran ən mühüm vəzifələrdən idi. Ona görə də əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunması ilə yanaşı, həm də dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur.

*Ardı Səh. 12*

# Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz xilas edildi

Əvvəli Səh.11

Bu isə öz növbəsində, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızı daha da ruhlandıraraq onların ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün ciddi zəmin yaratmışdır. Təbii ki, xaricdə yaşayan həmvətənlərimizin bir ideya ətrafında birləşdirilməsi ölkənin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün onlar dünyanın harasında yaşamalarından asılı olmayaraq Azərbaycanla fəxr edir, onun uğurlarından qürur duyur və fərəh hissi keçirirlər. Elə bu milli birliyə və dünya azərbaycanlılarının həmrəyliyinə nail olduğumuza görə də bizlər dahi şəxsiyyətə, Ümummilli Liderimiz Heydər Əliyevə borcluyuq.

Təbii ki, proseslər bununla başa çatmırdı. Qarabağ münaqişəsinin dinc yolla nizama salınması, işğal edilmiş torpaqlarımızın azad olunması istiqamətində ardıcıl, fəal xarici siyasət yürüdülməyə başlandı. Ölkənin iqtisadi həyatında mühüm dəyişikliklər baş verdi - aqrar islahatlar aparıldı, eyni zamanda özəlləşdirməyə başlanıldı. Azərbaycanın iqtisadi potensialını hərəkətə gətirmək, maliyyə sistemini yenidən qurmaq sahəsində ciddi addımlar atıldı. Xüsusilə, neft strategiyasının müəyyənləşməsi nəticə etibarı ilə Əsrin Müqaviləsinin imzalanması ilə təsdiqini tapdı və Azərbaycan dünya arenasında həm də iqtisadi mərkəzə çevrilməyə başladı. Həmçinin, regionlarımızın inkişafı üçün mühüm qərarlar qəbul olundu, bir sıra layihələrin başlanmasına start verildi. Bütövlükdə və sonrakı illərdə keçirilən tədbirlər nəticəsində sənayenin tənəzzül sürəti azalmış, inkişaf meyli artmış və istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmağa başlamışdı. Beləliklə, iqtisadiyyatda müsbət meyillərin daha da möhkəmlənməsi müşahidə olunurdu. Onu da qeyd etmək lazımdır ki, respublika regionlarının inkişafını təmin etmək məqsədilə dövlət tərəfindən bir sıra proqramlar qəbul edilmişdi. Artıq necə deyərlər, buz yerindən tərpənmişdir...

Lakin təəssüflər olsun ki, dövlətçilik dayaqlarımızın möhkəmləndirilməsinə qarşı çıxan bir çox daxili və xarici qüvvələr bu reallıqlarla barışa bilmirdilər. Ardıcıl müdaxilələrdən tutmuş terror və dövlət çevrilişinə cəhdlər isə bir hədəfi nişan almışdı - müstəqil Azərbaycan dövlətini. Çünki Ulu Öndərimizin yenidən hakimiyyətə qayıdışından sonra bu həqiqəti həzm edə bilməyən azğın qüvvələr hələ də var-gəl edirdilər. Şimalda və Cənubda separatçılıq meyllərinin ayaq açması cəhdləri də bu sıradan idi. Amma hər şeyə rəğmən, bu dahi şəxsiyyətin işıqlı dühası, zəngin siyasi təcrübəsi, xalqa möhkəm bağlılığı, nüfuzu, ən gərgin və həlledici anlarda vəziyyəti real qiymətləndirmək bacarığı və qətiyyəti sayəsində həmin cəhdlərin qarşısı alındı.

Dövlət çevrilişinə cəhd göstərən qüvvələr bir həqiqəti unutmuşdular ki, bu da xalq amili idi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələrində xalqımız dövlətçilik prinsiplərinə sədaqətini, iqtidarın yürütdüyü xarici və daxili siyasəti dəstəklədiyini yekdilliklə nümayiş etdirdi. Ümummilli Liderin bir çağırışı ilə yüz minlərlə azərbaycanlı bir yerə toplaşdı və dövlətinin müdafiəsinə qalxdı. Eyni zamanda, Heydər Əliyev bu hadisələr zamanı müstəsna dözüm, mətanət və siyasi müdriklik göstərdi, xalq iradəsinin təmsilçisi, dövlət təhlükəsizliyinin yeganə təminatçısı olduğunu bir daha sübut etdi. Beləliklə, düşmənin məkrli planı, Azərbaycanı daxildən parçalamaq niyyəti dövlət başçısının siyasi uzaqgörənliyi, mətinliyi və sarsılmaz iradəsi ilə puça çıxdı.

Daha bir fakta diqqət yetirək. Bu gün də xarici diplomatiyamızın siyasi uğuru kimi xatırlanan Lissabon sammiti - dahi şəxsiyyətin bu sammit zamanı göstərdiyi müdriklik xalqımızın tarixinə qızıl hərflərlə yazılmışdır. Bu bir həqiqətdir ki, neçə illərdən bəri Ermənistan havadarları ilə birlikdə dünya diplomatiyası sahəsində Azərbaycanın düşmən obrazını yaratmışdı. Ölkəmiz siyasət aləmində tənha qalmışdı. Hətta vəziyyət o qədər çətinləşmişdi ki, dost xalqlar belə bizim haqq sözümüzü deməkdə çətinlik çəkirdilər. Hər yerdə, bütün beynəlxalq mərkəzlərdə haqsızlığa, ədalətsizliyə uğrayan Azərbaycan həm də günahkar hesab edilirdi. Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi dünya siyasətində Azərbaycan haqqında yaranmış qeyri - obyektiv münasibəti və baxışları alt-üst etdi. Lissabon sammitində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğala məruz qalması haqqında qəbul edilən qərar da atılan ilk addımlardan biri idi. Nəticədə Heydər Əliyevin uzaqgörən siyasəti addım-addım Avropaya pəncərə açdı, BMT-nin yüksək kürsüsündən dünyaya yayıldı. Azərbaycanın haqq sözünü deyənlərin sayı artdı. Lissabon sammiti məhz bu haqq və ədalətin təntənəsi idi: 52 dövlət Azərbaycanı müdafiə etdi. Bu, böyük qələbə idi və sonrakı illərdə də bu kimi uğurlu siyasi qələbələrə imzalar atıldı.








Qarabağ cəbhəsində də yenidən formalaşan Ordumuz uğurlara imza atmağa başlamışdı. Horadizin düşmən tapdağından azad edilməsi artıq belə qənaətə gəlməyə zəmin yaradırdı ki, Azərbaycan əsla öz torpaqlarının işğal faktı ilə barışmayacaq. O cümlədən, Ordumuzun gücü və qətiyyəti qarşısında dayana bilməyəcəyini anlamağa başlayan Ermənistan atəşkəs rejiminin əldə olunması üçün müraciət etmək məcburiyyətində qaldı. Məhz sonrakı dövrlərdə Azərbaycan öz iqtisadi gücü ilə yanaşı, Ordusunun təkmilləşdirilməsi, gücləndirilməsi siyasətini həyata keçirməyə başladı.

Fakt budur ki, xalqına arxalanan, ölkəsi üçün quran, yaradan insanlar xoşbəxt insanlardır. Onlar millətin taleyini təyin etmək məsuliyyətinin nə demək olduğunu anlayır, bu məsuliyyəti ləyaqətlə daşıyır, həyatda xoşbəxtliyi ancaq gələcək nəsillərin şərəfi, varlığı və rahatlığı üçün çalışmaqda görürlər. Bu cür insanlar tək-tək olur, bəlkə də yüz ildə bir dəfə dünyaya gəlirlər. Amma ən çətin, böhranlı anlarında, xalq "olum ya ölüm" dilemması qarşısında qalanda gəlir və müqəddəs xilaskarlıq missiyasını həyata keçirirlər, öz həyatlarını millətə xidmətə həsr edirlər. Millətlə birlikdə özləri də yüksəlirlər, millətlə birlikdə onları da bütün dünya tanıyır, şöhrəti aləmə yayılır. Heydər Əliyev kimi.

Bu gün Ulu Öndər Heydər Əliyev siyasətinin alternativsiz davamçısı, Prezident İlham Əliyev də daim öz çıxışlarında Ümummilli Lider barədə fikirlərini bildirərkən onun tarixi fəaliyyət aspektlərinin təhlilini apararkən onu Azərbaycan dövlətinin və xalqının xilaskarı kimi qiymətləndirir və eyni zamanda, Ulu Öndər tərəfindən müəyyən edilmiş siyasi kursunu davam və inkişaf etdirdiyinə görə fəxr hissi keçirdiyini vurğulayır. Və ən əsası, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində torpaqlarımızın düşmən tapdağından azad edilməsi, Qarabağımızın incisi Şuşa şəhərinin mənfur yağıdan təmizlənməsi ilə bağlı söylədiyi tarixi nitqində Ata vəsiyyətini yerinə yetirdiyini möhtəşəm qürur hissi ilə bəyan etdi. Belə bir mötəbərlik və tarixi reallıq isə son illərdə heç bir dövlətdə, heç bir ölkədə yaşanmayıb. Artıq Azərbaycan dünya birliyində öz sözünü deyən lider ölkələr sırasında yer alması ilə yanaşı, həm də təşəbbüskar olaraq tanınmaqdadır və bu günün güclü, qüdrətli, inkişaf edən, çiçəklənən müstəqil Azərbaycanımıza görə bizlər Ulu Öndər Heydər Əliyevə əbədi olaraq borcluyuq. Bizlər inanırıq ki, Azərbaycanımız Ümummilli Lider Heydər Əliyevin layiqli siyasi varisi cənab İlham Əliyevin qətiyyətli siyasəti ilə daha böyük uğurlara, daha böyük qələbələrə imza atacaq.

# Turizm sahəsində yeni hədəflər

## 2026-cı ildə xarici turist sayı 4, yerli turist sayı isə 6 milyona çatdırılacaq



Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün ölkəmiz perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Azərbaycanda müasir tələblərə cavab verən otellərin inşası da əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir.

### Dünyanın 178 ölkəsindən 1602,3 min turist

Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir. Bunun nəticəsidir ki, ölkəmizə gələn turistlərin sayında ciddi irəliləyiş olmuşdur. Statistik məlumatlara istinadən deyə bilərik ki, 2022-ci ildə Azərbaycana dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 27,9 faizi Rusiya Federasiyası, 19,5 faizi Türkiyə, 10,6 faizi İran, 6,0 faizi Səudiyyə Ərəbistanı, 5,1 faizi Gürcüstan, 3,8 faizi Hindistan, 3,2 faizi Pakistan, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Qazaxıstan, 1,7 faizi Ukrayna, 1,6 faizi Özbəkistan, 1,5 faizi İsrail, 1,4 faizi Küveyt, hər birindən 1,2 faiz olmaqla Oman və Belarus, 10,8 faizi digər ölkələrin vətəndaşları olmuşdur. 2021-ci illə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 2,3 dəfə artaraq 357,9 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,1 dəfə artaraq 73,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 569,8 min nəfər olub.

Vurğulamaq yerinə düşər ki, 2022-ci ilin yanvar-noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım müşahidə edilib. Azərbaycana səfər edən xarici vətəndaşlar içərisində ilk yerlərdə ardıcıl olaraq Rusiya, Türkiyə və İran gəlir. Sonrakı sıralamada Səudiyyə Ərəbistanı, Gürcüstan, Hindistan, Pakistan, BƏƏ, Qazaxıstan və digər ölkələr növbələşir. Türkiyə, Səudiyyə Ərəbistanı, Hindistan üzrə bərpa göstəriciləri 90 faizdən çoxdur. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir.. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

### Pandemiyadan əvvəlki rəqəmlərin 50 faizinə bərabər ziyarətçi

Ötən il Azərbaycan ümumilikdə 1,6 milyon xarici ölkə vətəndaşını ziyarətçi kimi qəbul edib və bu, pandemiyadan əvvəlki rəqəmlərin 50 faizinə bərabərdir. 2026-cı ildə xarici turist sayını 4, yerli turist sayını isə 6 milyona çatdırmaq hədəflənib.Qeyd edək ki, cari ilin yanvar ayında Azərbaycana dünyanın 131 ölkəsindən 119,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Rəsmi məlumatlara əsasən, gələnlərin 33,8 faizi Rusiya Federasiyası, 21,1 faizi Türkiyə, 9,3 faizi İran, 5,6 faizi Gürcüstan, 3,4 faizi Hindistan, 3,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,7 faizi Pakistan, 2,1 faizi Küveyt, hər birindən 1,8 faiz olmaqla Səudiyyə Ərəbistanı və Qazaxıstan, 1,5 faizi Ukrayna, hər birindən 1,2 faiz olmaqla Özbəkistan, Türkmənistan və Belarus, 10,1 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə Pakistandan gələnlərin sayı 9,9 dəfə, Hindistandan - 8,6 dəfə, Türkmənistandan - 5,0 dəfə, Özbəkistandan - 5,0 dəfə, Belarusdan - 3,6 dəfə, Çindən - 3,1 dəfə, Qazaxıstandan - 3,0 dəfə, Küveytdən - 2,9 dəfə, Omandan - 2,2 dəfə, İsraildən - 2,1 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 1,9 dəfə, Gürcüstandan - 1,6 dəfə, ABŞ-dan - 1,6 dəfə, Rusiya Federasiyasından - 1,5 dəfə, Böyük Britaniyadan - 47,6 faiz, Türkiyədən - 40,7 faiz, Ukraynadan - 19,8 faiz, İrandan - 15,6 faiz artıb.

2022-ci ilin yanvar ayı ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 49,0 min, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 1,6 dəfə artaraq 4,3 min, körfəz ölkələrindən gələnlərin sayı 29,3 faiz artaraq 21,3 min nəfər olub.Dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqların ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir.

Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir. Bütün bunlar ölkəmizin turizm potensialını daha da artıracaqdır.

**Zümrüd BAYRAMOVA**



Vəli Vəliyev

# Əvvəl və son...

Dəfələrlə demişəm, yenə təkrar edirəm, kül olsun o millətin başına ki, liderini, rəhbərini, prezidentini qoruya bilmir, onun kənar qüvvələrin ayaqları altına düşməsinə göz yumur, hətta öldürərək başına bir qədəh də vurur. Uzun illər liviyalıları cənnətdə yaşatmış Qəddafinin, mətinliyi, dözümü ilə amerikalıları heyrətdə boğan, xalqının lideri Səddam Hüseynin son aqibətini gözünüzün qabağına gətirin. Bu liderlərin tək suçu Qərblə mübarizədən geri çəkilməmək, onların əmrlərinə boyun əyməmək idi. Hər iki lider xarici sifarişlərlə infaz edildilər. Sadə, binəva xalqı da inandırdılar ki, sizin gələcəyiniz bu şəxslərdən sonra daha gözəl olacaq. Amma hər iki ölkə xalqları bu gün bataqlıqda çapalayır, yaşamaq uğrunda mübarizə aparırlar. Qərb isə məqsədinə çatana qədər dil tökdü, sonra isə...

İraqın sərvəti talandı, geriyə qalanlar isə xarabalıq, aclıq, səfalət, didişmə, dartışma oldu. Nefti və digər sərvətləri ilə öyünən iraqlılar bu gün yox olmamaq, yer üzündən silinməmək, ölümdirim mücadiləsi aparırlar. Qərbin cənnət vədlərinə ləbbeyk deyənlər və bu şüarlarla iraqlıların hər gün qulağını dolduranlar artıq ortalarda görünmürlər. Sanki qeybə çəkiliblər. Daha doğrusu səkkizguşəli, səkkiz üzlü siyasət gözgüsünün arxasından buraxdıqları izə tərəf boylanıb qürrələnirlər. Liviyada isə vəziyyət İraqdakından betərdir. Vaxtilə bütün kommunal, səhiyyə, təhsil xidmətləri ödənişsiz olan Liviyada ailələr bu gün bir tikə çörək tapanda sevinirlər. Bu nizamı pozanlar isə gəldikləri kimi bir andaca buralardan uzaqlaşıblar, xalqı öz dərdləri ilə baş-başa buraxıblar.Liviyada hərbi kampaniyanı başladan Sarkozili Fransa kürsüsünü Olanda və Makrona buraxsa da bu dövlətin siyasəti hələ də dəyişməyib. Fransa Əlcəzairdə əlcəzairlilərə qarşı törətdiyi qətliamları bu gün liviyada liviyalılara qarşı davam etdirir. BMT Təhlükəsizlik Şurasının qətnaməsini tələm-tələsik yerinə yetirən Fransa yalnız ona asi olan Qəddafini aradan götürəndən sonra aradan çıxdı. Nə BMT-də, nə də dünyanın heç bir təşkilatında Fransanın boğazından tutub soruşmadılar ki, İraqda kimyəvi silah axtarmaq bəhanəsi ilə bu ölkənin altını üstünə gətirən Amerikanı başa düşdük, bəs sən Liviyada nə axtarırdın? Yaxud bütün bu baş verənlərə görə kim cavab verəcək? Axı, bir quruluş yalnız daha yaxşı quruluş tərtib etmək üçün yıxılmalıdır. Fransa Qəddafidən yaxşı nə edə bilir bu gün? Heç nə. Yalnız onu deyə bilərik ki, Fransa kimi ölkələrin imperialist xisləti dağıtmaq, məhv etmək üçün formalaşıb. Fransa dəyişməyib, iki əsr hansı düşüncədə, hadisələrə reaksiyası hansı biçimdə idisə, bu gün də eyni səhvlərə imza atır.Bəli, nə iraqlıları, nə də liviyalıları bağışlamaq olmaz. Qəddafini və Səddamı cəzalandırmağı fransızlara və amerikalılara həvalə etməklə, ölkəsinin liderinin xarici xüsusi xidmət orqanları tərəfindən linç edilməsinə dəstək olmaqla onlar bir ömür lənətlənmiş sayılırlar.Yox, niyyətimiz nə Səddam Hüseyni, nə də Qəddafini müdafiə etmək, yaxud onların əməllərinə haqq qazandırmaq deyil. Onların etdiklərinin yaxşı, ya da pis olduğunu da deyə bilmərik. Doğrusunu yalnız bu ölkələrin vətəndaşları deyə bilər. Məsələ bundadır ki, onların ölkələrində lider olmalarını xalq istəyib və təmin edibsə, onların mükafatlandırılması, yaxud cəzalandırılması da xalqın əli, sözü ilə olmalıdır. Sarkozinin istəyi ilə Qəddafinin, Buşun arzusu ilə Səddamın cəzalandırılması, öldürülməsi, asılması, yerdə sürüdülməsi elə o xalqların yerlə bir edilməsi deməkdir. Liderlərini asmaqla, linç etməklə Amerika və Fransa sanki, İraqı və Liviyanı, buranın insanlarını öldürüb getdilər. Bu qədər rəzillik ola bilərmi?Bu gün Amerika və Fransa Cənubi Qafqazdadır, müxtəlif bəhanələrlə regiona soxulublar. Bölgənin ən zəif ölkəsində öz varlıqlarını rəsmiləşdirirlər. Rusiya hələlik onlara sərbəst fəaliyyət imkanı vermir. Bunun da əlacını Mockvanın başını Ukrayna ilə müharibəyə qatmaqla tapıblar. Rusiya məhz bu səbəbdən onlara daha güclü, daha aqressiv şəkildə qarşılıq verə bilmir. Gürcüstandan ikinci cəbhəni açmağa çalışırlar. Şimali Qafqazda da vəziyyəti gərginləşdirirlər. Artıq Çeçenistan və İnquşetiyada rus hərbi postlarına hücumların olması barədə informasiyalar gəlməkdədir. Bir sözlə, Qafqaz regionu növbəti qarşıdurmaların episentri ola bilər.Bu iki imperiya xislətli dövlərin regional yardımçısı da var - İran. Bütün addımlar artıq sinxronlaşdırılıb. Amerikanın, yaxud Fransanın bir işarəsi yetərlidir ki, molla rejimi həmin əmri daha aqressiv şəkildə həyata keçirməyə cəhd etsin. Zəngəzur dəhlizinin açılmaması üçün bütün imkanlarını səfərbər edən Fransa regiondan uzaqdadır və açıq şəkildə deməsə də Zəngəzuru "qırmızı xətti" kimi görür. Ancaq bunu İran vasitəsilə çatdırır. Niyə? Çünki, qorxur, Qərbin əlaltısı olmağı özünün yeganə həyat sığortası sayır. Amma Səddamın və Qəddafinin aqibətini yaşamaq növbəsi molla rejiminindir. Bəs necə, hər şeyin əvvəli olduğu kimi sonu da var. İranlılar necə, diktatorlarını kəndirdən xilas edə biləcəklərmi?

ŞƏRH+AKTUAL

# Azərbaycan-İsrail: strateji tərəfdaş, sadiq dost və qardaşlıq reallığında

## Bu münasibətlər regionda qeyri-sabitliyin aradan qaldırılmasına da öz əhəmiyyətli töhfələrini verir





Azərbaycan-İsrail münasibətləri daim özünəməxsus üstünlükləri və tarixi həqiqətləri ilə seçilib. Ölkələr arasındakı təmasların həm də xalqlararası dostluq və qardaşlıq faktorlarına söykənməsi nəticə etibarı ilə özünü siyasi konturların cızılmasında, gələcək addımların müəyyən edilməsində də öz mühüm rolunu oynayıb. Tarixi məqamlar isə uzun illərə söykənir. Belə ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən cəmi iki ay sonra, İsrail yeni dövləti rəsmən tanıyan ilk dövlətlərdən biri olmuş və 1992-ci il 7 aprel tarixindən etibarən Azərbaycanla diplomatik əlaqələr qurub. Məhz həmin dövrdən başlayaraq, ikitərəfli əlaqələr xüsusi olaraq təhlükəsizlik məsələləri, enerji ticarəti, eləcə də mədəniyyət və təhsil sahələrində sıx əməkdaşlıq fonunda daha da genişlənib.

### Azərbaycan və İsrail, xüsusilə hər iki dövlətin ən çox ehtiyac duyduğu sektorlarda əməkdaşlıq etməklə, bir-birləri üçün əsas regional aktorlara çevriliblər

O cümlədən, danılmaz həqiqətdir ki, Azərbaycanla hərbi-strateji əməkdaşlığa da mühüm önəm verən İsrail öz etibarlı siyasətini istər 2016-cı ilin aprel müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində də göstərib və statistik faktlar da bu gerçəkliyi kifayət qədər ehtiva etməkdədir. Beləliklə, İsrail Azərbaycanın silah və yüksək texnologiyalarla bağlı əsas təchizatçısına çevrilib. Sözügedən hərbi texnologiyalar düşmənin mövqeyini təyin etmək və onu asanlıqla məhv etmək iqtidarını cəbhədə də sübuta yetirdi.

Digər tərəfdən, Azərbaycan, öz etibarlı və strateji tərəfdaşına onun istehsal edə bilmədiyi məhsulu - nefti təklif edir. Müxtəlif mənbələrin göstəricilərinə görə, İsrailin 40 milyon barel və ya 1,5 milyard dollar dəyərində illik neft idxalı (ümumi idxalın 40%-i) məhz Azərbaycandan tədarük olunur və bu rəqəmlər zaman-zaman artır. O cümlədən, ölkələr arasında logistika sahəsində də bir sıra əhəmiyyətli addımlar atılmaqdadır. Nəticədə Azərbaycan və İsrail, xüsusilə hər iki dövlətin ən çox ehtiyac duyduğu sektorlarda əməkdaşlıq etməklə, bir-birləri üçün əsas regional aktorlara çevriliblər.

### Azərbaycan İsrail dövlətinə dəstək göstərən əsas müsəlman ölkələrindən birinə çevrilib

Lakin regionda bir-birini əvəzləyən müxtəlif hadisələr fonunda Azərbaycanın etibarsız qonşusu kimi qələmə verilən İran ölkəmizin İsraillə yüksələn xətlə əməmkdaşlıq perspektivlərindən təlaşlanır və əlinə düşən hər imkanında bu münasibətləri səbəbi olmadan "özünə qarşı təhlükə" kimi bəyan edir. Hətta zaman-zaman Azərbaycana qarşı düşmənçilik mövqeyi sərgiləyən Ermənistana havadarlıq etməklə sanki ölkəmizlə İsrail arasındakı münasibətlərə görə "qisas" alır. İstər torpaqlarımızın işğala məruz qaldığı dövrlərdə, istərsə də torpaqlarımız işğaldan azad edildikdən sonra İranın açıq-aşkar düşmənimizi öz qanadları altına almaq cəhdləri də bu kimi təəssüfedici faktları önə çıxarmaqdadır. Xüsusilə, İsraillə düşmənçilik edən Tehran bu düşmənçiliyini açıq-aşkar rəsmi Bakıya qarşı da yönəldir və qonşu ölkənin rəsmiləri bu hərbi əlaqələri İranın təhlükəsizliyinə "təhdid" kimi nəzərdən keçirirlər. Halbuki, belə əsassız iddialar özündə heç bir reallığı əks etdirmir.

Azərbaycan İsrail dövlətinə dəstək göstərən əsas müsəlman ölkələrindən birinə çevrilib. Azərbaycanın İsrailə və yerli yəhudi icmalarına qarşı olan dost münasibəti də bu kontekstin əhəmiyyətini kifayət dərəcədə artırıb.

### Azərbaycan və İsrail lobbiləri arasında möhkəm bağlılıq mövcuddur

Ölkələrimizin lobbiləri arasındakı sıx münasibətlər də bunu təsdiq edir. Xüsusilə, müsəlman dövlətləri və İsrail arasında dialoq və təşəbbüsün fəal iştirakçısı olan, Nyu-Yorkdan olan ravvin Mark Şeynerin sözlərinə görə, Azərbaycanın İsrailə verdiyi böyük dəstək sayəsində Azərbaycan lobbisinin Amerika-yəhudi icması ilə əlaqələri daha da genişlənib. Amerika-yəhudi cəmiyyətinin liderlərinin fikrincə, Azərbaycan, daha geniş müsəlman dünyasına nümunə göstərir.

Hələ 2016-cı ilin dekabrında Azərbaycana səfəri çərçivəsində baş nazir Netanyahu dövlətlər arasında ikitərəfli əlaqələri əla münasibətlər və səmimi dostluq adlandırmışdı. Həqiqətən, Azərbaycan-İsrail münasibətləri, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, uzun müddət əvvəl formalaşmış yaxınlıq mərhələsini keçib və yaxın dostluq, hətta qardaşlıq səviyyəsinə qədər yüksəlib. Bundan sonra kənd təsərrüfatı, təhsil və turizm kimi sahələrdə də ikitərəfli əməkdaşlıq fəal surətdə inkişaf edir. Artıq indiki dövrdə - torpaqlarımız işğaldan azad edildikdən sonra bir sıra aparıcı İsrail şirkətləri ərazilərimizin dirçəldilməsində fəaliyyətə başlayıblar. Qarabağın bərpasında İsrailin də dəstəyinin böyük önəmi xüsusilə vurğulanmaqdadır.

### Ermənistan-İran təhlükəsinə qarşı Azərbaycan-İsrail gücü!

Söz yox ki, belə bir möhkəm bağlantının fonunda, Azərbaycan-İsrail münasibətləri, düşmən Ermənistanın da narahat olmasına səbəb olub. Xüsusilə, Ermənistanın özünü iki tərəfdaş ölkənin qarşılıqlı düşməni olan İranın müttəfiqi kimi göstərməsi də heç kimə sirr deyil. Uzun müddət, erməni rəsmiləri və lobbiçiləri Azərbaycan-İsrail əlaqələrini pozmağa cəhd göstəriblər. Lakin, bu saxtakarlıq dalğalarının qarşısı dərhal alınır.

Beləliklə, iki ölkə arasında yaranan və möhkəm təməllərə əsaslanan qarşılıqlı etimad siyasəti qarşıdakı illərdə daha da möhkəmlənəcək və bu həqiqət həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, hansısa digər ölkələrin - məsələn, İranın, Ermənistanın cəhdlərinə baxmayaraq bu münasibətlər regionda qeyri-sabitliyin də aradan qaldırılmasına öz töhfələrini verir, bundan sonra da verəcək.

*Rövşən RƏSULOV*



Təhmasib Novruzov

# İrinyanın "DEVİTBE" rejimi...

Yenə İran, yenə fars-molla rejimi! Mollaların çox sevdikləri bir kəlam var: "qırmızı cizgi"! Həm də bu "qırmızı cizgi"ni hayların mənafelərinin müdafiəsində tez-tez işlədirlər. O hayların ki, 30 ilə yaxın bir müsəlman ölkəsinin 20 faiz ərazisini işğal altında saxlayıb, bütün ərazini xarabazara çevirib, ən dəhşətlisi, məscidləri dağıdıb, təhqir edib. Özünü "islam bayraqdarı" kimi gözə soxmağa can atan molla rejiminin bu siyasəti (əslində siyasətsizliyi) çox mətləblərdən xəbər verir...

Yaxşı yadımdadır, 1991-ci il noyabr ayının ortalarında Yaponiya, İngiltərə, İsveç və digər yeddi ölkəni təmsil edən ondan çox media nümayəndəsi gəlmişdi Qarabağa. Nahar yeməyindən sonra Bakıya dönməzdən əvvəl mənə bir sualla müraciət etdilər. Müstəqilliyini yenicə elan etmiş Azərbaycanın bu müstəqilliyi qoruya biləcəyi, müstəqil dövlət qurulacağına nə qədər inanmağımızla bağlı bu suala geniş cavab verdim. Həmin cavabda Azərbaycanın müstəqilliyinin reallaşması yolunda ən böyük manea kimi İranın adını çəkmişdim. Görünür jurnalistlər üçün mühüm olan bu məqam onların diqqətini xüsusi cəlb etmişdi və bir neçə öklənin mediasında bu fikirlərim dərc edilmişdi. Zaman göstərdi ki, mən və hələ o zaman mənim kimi düşünən insanlar yanılmamışlar. Bu, danılmaz faktdır ki, İranın fars-molla rejiminin istismarı altında yaşayan 30 milyondan çox Azərbaycan türkünün yanı başında güclü, firavan, stabil Azərbaycan dövlətinin olması rejim üçün qəbuledilməzdir və hər vəchlə bunun qarşısını almağa çalışır. Əslində, onların baxışı ilə yanaşanda mollaları qınamaq da olmur. Çünki hakimiyyətləri üçün ən böyük təhlükə olan, yüz ildən artıqdır ki, haqqı tapdanan bir millətin kükrəyən hiddətindən qorxmalıdırlar da. Amma dövlət və dövlətçilik baxımından o qədər savadsız, o qədər səriştəsizdirlər ki, bu təhlükənin loyallaşdırılması ilə bağlı ağıllı-başlı bir siyasət qura bilmirlər. Hələ də dərk etmirlər ki, Azərbaycan cəmi 30 il ərzində fars mollalarının 100 ilə qət edə bilmədiyi bir sürətlə inkişaf edib və indi bu ölkə ilə hədə-qorxu, təhdid dili ilə danışmaq, sadəcə, özünə zərbə vurmaqdır.

2020-ci ilin payızındakı 44 günlük savaşdan zəfərlə çıxdıqdan sonra niqabı düşən mollaların post-müharibə dövründə attıqları addımları hər birimiz görürük və bilirik. Son iki ayda isə indiki dünyada heç bir dövlətin digərinə yönləndirmədiyi saysız-hesabsız təxribatlar isə, İrinliyan rejiminin özünün "qırmızı cizgi"ni çox aşdığına dəlalət edir. Bu gün Azərbaycanın hüquq-mühafizə təşkilatlarının yaydığı rəsmi məlumat isə hər kəsi şoka saldı. Sən demə mollalar Azərbaycanda "kərimə"(?) dövləti qurmaq üçün fəaliyyətə başlayıbmış. Ay sənin özün öləsən. Düşmən olsa da, duzlu deyib Qıdı kirvə: "Adə, bu gada dalidi, nadi..." Bu mollalar ya dəli olublar, ya da... Yox, elə dəli olublar. Belə "dövlət siyasəti"ni həyata keçirənlərə ağıllı demək mümkün deyil, dəlidilər ki, durublar. Koroğlu dəlisi yox e..., el arasında deyildiyi kimi, "devitbe"dilər. Adam nə zaman bu hala düşər? O zaman ki, düşür bir çamıra, ordan çıxmaq üçün yol axtarır, amma tapa bilmir. Nəticədə, fikirdən, düşüncədən, cavabsız suallardan beyin pozulur və adam olur dəli, yəni "devitbe"! Əcəba o dərd hansı dərddir ki, mollaları bu qədər təşvişə salıb və dəli eliyib? Onlar yaxşı anlayırlar ki, qədim türk yurdu olan Rey mülkündə yaratdıqları qondarma bir layihə-dövlətin taleyi həll olunmaqdadır və tarixi ədalətsizlik bərpa olunmağa doğru getməkdədir. Təkcə Azərbaycan türkləri deyil, İran adlanan ölkənin yarısını təşkil edən türk əsilli xalqlar bu ölkənin taleyini həll edən etnik toplumdur. Azərbaycanın sürətli inkişafı, Türkiyənin beynəlxalq gücə çevrilməsi həmin 40 milyonun oyanışı üçün ən böyük təhlükədir və bu təhlükənin qarşısını almağın yollarını arayırlar. Nə yazıqlar ki, islam fanatizmini gücləndirməkdən qeyri bir yol da bilmirlər...

Bir gün eşitsəniz ki, Xomeneyi, yaxud Raisi Paşiklə quda olub, buna da təəccüb etməyin. Onsuz da etnik qohumluqları olan fars-hay birliyini bir az da möhkəmləndirmək üçün bundan yaxşı vasitə ola bilməz. Zatən, Dərviş Məstəli babamızın göndərdiyi xəbərə görə, Anna Akopyanla hərəsi bir gecə siğəlik yaşayıblar. Görünür dadı damaqlarında qalıb və oğullarına da Annanın qızını alacaqlar ki, həm qudalaşıb hay-erməni qohumluğunu təzələsinlər, həm də Anna tez-tez onlara qonaq gəlsin... LƏNƏTULLAAAAH!...

# Qız qızıla dönür: xəbəri yox insanların!

## 7 oğul istəyənlərin 1-cə qıza qarşı aqressiyasının səbəbi nədir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*



...Körpələr abort olunacağını əvvəldən anlayır. Yazmaq, təsvir etmək çox çətindir. Amma yazacam. Döl həkimin alətini hiss edəndə neynir, bilirsinizmi? Uşaqlığın bir küncünə qısılır, gizlənməyə çalışır, dəmir alətlərin ona çatmaması üçün... Alətlər uşaqlığın divarını zədələyə-zədələyə onu axtarır, axtarır, axır ki, həkim maqqaşı onun ayağını, qolunu, bədənini, başını "yaxalayır"! Dartır, qoparır! Parça-parça bətndən çıxarır. Yaradanın insana ən böyük lütfü beləcə qətl edilir. Bundan sonra abort edən həkim də, aborta gedən qadın da həyatına davam edir. Heç nə olmamış kimi...










### Çətin günlər bitdi, qarşıda daha çətin günlər var...

Azərbaycan dünyaya gələn uşaqların cins nisbətinə görə selektiv aborta üstünlük verən dövlətlər arasında birinci yerdədir. 2021-ci ilin statistikasına əsasən Azərbaycanda 100 qıza 115 oğlan düşürdü. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür, bu təbiətin yaratdığı tarazlıqdır.

Dölün cinsinin müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Yəni indi selektiv abortla bağlı olan çətinlik yaxşın gələcəkdə maksimal dərəcəyə çatacaq.

Cinsi ayrı-seçkilik dünyanın bütün ölkələrində həmişə müzakirə edilən və heç vaxt öz həllini tapmayan bir mövzudur. Valideynlər bəzən bilərəkdən, bəzən də bilməyərəkdən övladları arasında fərq qoyur. Doğulacaq körpənin qız olacağını öyrənən bəzi valideynlər sevinsə də, çoxları bu duruma, sözün həqiqi mənasında, kədərlənirlər. Çox təəssüf ki, bəzi halda bu vəziyyət abortla nəticələnir. Elə bu səbəbdəndir ki, statistik rəqəmlərdə balans fərqi açıq-aydın gözə çarpır. Cəmiyyətin oğlan sevdası gender balansını ciddi formada pozur.

Tələf edilən uşaqların ölkəmizdəki statistikası çox acınacaqlı rəqəmlər ortaya qoyur. Statistik göstəricilərə görə, Azərbaycanda hər il 20 min uşaq abort edilir. Qeyri-rəsmi statistika isə bu rəqəmi 25-27 min arasında dəyişir.

### Əgər təcavüzdən hamilə qalınıbsa...

Bu gün dünyada abortla bağlı dəhşətli statistika var. Körpənin ana bətnində qətl edilməsini tamamilə qadağan edən ölkələr də var, nisbətən məhdudiyyət qoyan da, tamailə azad edən də. Hazırda aborta cinayət kimi baxan ölkələr sırasına Əfqanistan, Banqladeş, Anqola, Venesuella, Qvatamella, Honduras, Misir, İndaneziya, İraq, İran, İrlandiya, Yəmən, Kolumbiya, Livan, Liviya, Mavritaniya, Mali, Nrpal, Nikarauqa, Oman, Paraqvay, Yeni Qvineya, Salvador, Suriya, Çili daxildir. Bu ölkələrdə hakim olan qanuna görə qadının həyatı risk altında olduğu zaman-zaman abort edə bilər.

Tibbi göstəricilərə əsasən və istisna hallarda aborta icazə verən ölkələr sırasında Əlcəzair, Argentina, Boliviya, Braziliya, Qaana, İsrail, Keniya, Kosta-rika, Marokko, Meksika, Niqeriya, Pakistan, Peru, Polşa, Uruqvay var. İspaniyada 1985-ci ildən qüvvədə olan qanuna görə cinsi zorakılıq halı baş verərsə, qadının fiziki və psixi sağlamlığı hamiləliyi davam etdirməkdə çətinlik yaratdığı hallarda aborta rəsmi şəkildə icazə verilir.

### Doğum evindəki oğlan sevdası

Maraqlıdır ki, doğum evində tibb bacıları çöldə səbirsizliklə gözləyən kişiyə içəridəki xanımının oğlan doğması barədə daha cənfəşanlıqla xəbər verirlər və qızların doğum xəbəri ilə müqayisədə oğlan muştuluğu və ya nəməri daha "ağır" olur. Oğlan analarının doğum evində qaldığı müddətdə xərclədiyi pul da bir az artıq olur. Belə ki, körpəyə qulluq edən tibb bacıları gedib-gəlib "hörmət" gözləyirlər. Evə gəlişi xüsusi təmtəraqla qeyd edilən oğlan övladı ailədə də daha "ağır çəki"yə sahib olur. Bu davranışın nəticəsidir ki, bizim ailələrdə daha çox oğlan uşaqları "ərköyün" olur.

Paltarın, oyuncağın, otağın-ümumiyyətlə hər şeyin daha yaxşısı oğlan övladına aid olur. Aramızda elə valideynlər var ki, işdən evə gələndə birinci oğlu ilə maraqlanır, onun hal-əhvalını soruşur, problemi ilə maraqlanır. Kənarda boynunu bükən, "sırasını gözləyən" qız övladı isə hələ uşaqlıqdan bu davranışın məhz belə olması gərəkdiyini qavrayır.

Düzdür, bu davranışı hər valideynə aid etmək də olmaz, bilirik, övladlarını ayırmayan, qız və ya oğlan olduqlarına fərq qoymayan kifayət qədər valideyn var. Gənc nəsil üçün daha oğlan, qız seçimi yoxdur, çox sevindiricidir ki övladlarının cinsiyyəti arasında fərq qoymayan nəsil yetişir. Əvvəlki nəsil də özələrindən öncəki nəsildən təsirlənərək bu addımı atırdı. Valideynlər adətən "oğlum olmasa, nəslin davamçısı olmayacaq, soyadım itəcək", kimi düşüncələrlə bunun faciəvi olduğunu fikirləşirdilər. Gənclərimiz isə bunun o qədər də əhəmiyyətli olmadığının fərqindədirlər.

### Dölün cinsinin təyin edilməsi qadağan olunmalıdır

Məlumat üçün qeyd edək ki, hazırda mövcud olan qanunvericiliyə əsasən, dölün cinsi məlum olduqdan sonra abort etmək qadağandır, lakin bu məsələnin daha da ciddiləşdirilməsi nəzərdə tutulur. Dölün cinsini müəyyən etmək üçün ultrasəs müayinəsinin qadağan olunub-olunmaması məsələsi selektiv abortun qadağası kimi mübahisəli olaraq qalır.

Ölkəmizdə abort qanunla qadağan deyil, qadının abort olunarkən həyat yoldaşından yazılı icazə alınması məsələsi də qanunla dəstəklənmir. Halbuki bir çox müsəlman ölkəsində, o cümlədən qonşu İranda qadağan olunan abort yalnız ananın həyatı təhlükədə olarsa həyata keçirilir, üstəlik, qadının həyat yoldaşı buna yazılı icazə verməlidir. O ki qaldı abortun ümumiyyətlə ölkəmizdə qadağan edilməsi məsələsinə, belə görünür ki, bu yaxın onillikdə belə mümkün olmayacaq. Milli Məclisin deputatları bunu cəmiyyətin belə qadağaya hələ hazır olmaması ilə əlaqələndirirlər. Amma zənnimcə qadağaya hazır olmurlar, alışırlar...

### Dünyada "Qız uşaqları günü" də var...

Hər il oktyabrın 11-i Beynəlxalq Qız Uşaqları Günü qeyd edilir. Bəli, qeyd edirlər, sevinirlər, qız uşaqlarına sevgidən danışırlar. Bəs görəsən qızını həkim bıçağına doğratdıranlar nə düşünür bu gün?

Hər il dünyada 55 milyon uşaq ana bətnindən doğranaraq xaric edilir. Onların 20 milyonu qeyri-leqal abortlardır. Yəni küncdə-bucaqda, evdə, həyətdə, hansısa fəaliyyəti qadağan qadağan olunmuş həkimin çirkli otağında edilən abortlar... Bu abortların hər il dünyada 70 mindən artıq qadının ölümünə səbəb olduğunu bilirdinizmi?

Edilən abortların əksəriyyəti dölün 12-13 həftəliyində reallaşır. Bu körpənin cinsiyyətinin bəlli olduğu ərəfədir. Yəni daha açıq desəm, cinsinin qız olması körpənin yaşama şansını azaldır və bu da selektiv abort statistikasını yüksəldir. Bilirəm, çox şey deyəcək bəziləri. Kasıblıq, maddi çətinlik, savadsızlıq, başısoyuqluq - adını hər nə qoyursan qoy, nəticə dəyişmir. Axı arzuolunmaz hamiləlikdən qorunmaq o qədər də çətin və bahalı deyil. Bir az savad, azacıq dərrakə, çox kiçik miqdarda maliyyə. Maliyyə dediyimə baxmayın, bir aborta sərf edilənin yarısı qədər məbləğdən söhbət gedir arzuolunmaz hamiləlikdən qorunmaq üçün 4-5 illik vasitəni əldə etməyə.

Çox şey demək olar, amma deməyəcəm. Qadınlarınızı incitməyin, gəlinlərinizi söyməyin sizə oğul övlad doğmadığı üçün. Bu onun "günahı" deyil, kişinin orqanizmindən qaynaqlanan nəticədir. İnsanın qurulușunu müəyyən edən 46 xromosomdan ikisi cinsiyyət xromosomudur. Bu iki xromosom kişidə XY, qadında isə XX kimi tanınır. Y xromosomu özündə kişilik, X xromosomu isə qadınlıq genləri daşıyır. İnsanın əmələ gəlməsi kişidə və qadında cütlər halında yer alan bu xromosomların birinin birləşməsi ilə başlayır. Qadındakı X xromosomu kişidəki X xromosomunu ehtiva edən spermatozoid ilə birləşərsə, doğulan uşaq qız olur. Yox, əgər Y xromosomunu daşıyan spermatozoidlə birləşərsə, uşaq oğlan doğulur. Qısası, uşağın cinsiyyətini müəyyən edən səbəb atadan gələn xromosomdur.

***Lalə Mehralı***

# Hansı yollarla qida çirklənməsi baş verir?



"Bazarstore" marketlər şəbəkəsində aksiyaya düşmüş yuyucu vasitələr kassa aparatının yanında satışa çıxarılır. Eyni zamanda, ora qida məhsullarını da qoyurlar. Yuyucu tozun ora qoyulması düzgün deyil. Bu, qidanın kimyəvi çirklənməsi deməkdir. Bu da qida zəncirinin sonunda istehlakçıların ya "mikrobioloji" ya da " kimyəvi" zəhərlənmələrinə səbəb olur. Düşünürəm ki, marketlər bu barədə ciddi göstəriş verməlidir". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.

Onun sözlərinə görə, həmçinin, AQTA da yoxlama keçirməli, maarifləndirici işlər aparmalıdır: "Özüm də bu halın şahidi olmuşam. Marketdən alış-veriş edib kassaya yaxınlaşdıqda yuyucu vasitələrin də satış üçün ora qoyulduğunu gördüm. Çörək, şirniyyat, ağartı məhsulları və s. yuyulmadan istehlak edilir. Bu kimyəvi maddələrlə yanaşı həmin məhsulların qoyulması istehlakçılar üçün təhlükəlidir".

Mütəxəssis sözlərinə davam edərək bildirib ki, qidanın çirklənməsi 3 yolla baş verir: "İlk növbədə bu, mikrobioloji çirklənmə yolu ilə baş verir. Otaq temperaturunda qalan riskli qidalar (toyuq, ət, balıq və s.) düzgün şərtlər altında mühafizə edilmədikdə mikrobioloji çirklənmə baş verir. Yəni, mikrobioloji bakteriyaların çoxalması nəticəsində qidalar çirklənir. İkincisi, fiziki çirklənmədir. Hansı ki bir qidanı alırsınız, içindən tük, daş, şüşə qırıntısı və s. çıxır. Bir sözlə, qidanın içindən gözlə görünən, ağızda hiss olunan maddələrin çıxması fiziki çirklənmə nəticəsində baş verir. Kimyəvi çirklənmə isə bu cür yuyucu tozlar vasitəsilə, dərmanlanma prosesi keçmiş qidalar düzgün yuyulmadıqda həyata keçir. Həmin o marketlərdə qidaların, xüsusilə də yuyulmayan qidaların qoyulduğu dəzgaha yuyucu vasitələrin qoyulması kimyəvi çirklənməyə gətirib çıxarır. Bu kimi hallar mütləq şəkildə aradan qalxmalıdır".

***Ləman Əlizadə***

# Oruc tutmaq hansı xəstəliklərin dərmanıdır?

**"Quranda "Xəstəlik səbəbindən oruc tutmamalıdırlar" deyə istisna hal var. Bu, Quranda görünən və bilinən bəlli bir ayədə öz əksini tapıb. Orada səfər də vurğulanıb. Yəni, xüsusi səfərə gedən, evindən, yaşadığı yerdən uzaqlaşan insan yola çıxırsa, oruc tutmaya bilər. Bu da ayənin özündə məhz Orucluqla bağlı ilahi göstərişdə istisna hal kimi vurğulanıb". Bu sözləri SİA-ya açıqlamasında Hacı Təyyar Hüseynli deyib.**



Onun sözlərinə görə, əgər doğrudan da insanın xüsusi xroniki xəstəliyi varsa, yəni şəxs il uzunu davamlı xəstə olursa, həkim təyinatı ilə imsakdan iftara qədər qida və sudan imtina edəcəksə, həb qəbul etməyəcək və orqanizmində ciddi fəsadlar yaranacaqsa bu halda oruc tutmamalıdır: "Bura əsasən şəkər xəstələri aiddir. Amma ayədə bu da var ki, digər günlərdə tutmadığının qəzasını, yəni, bərpasını edə bilər. Allah-təala insana izah etmək istəyir ki, yəni üzrlü səbəbdən tutmasan belə bu sənin məsləhət bilinən göstərişindir və bunu digər vaxtlarda bərpa edərsən.

Misal üçün deyirlər ki, "Xəstəyik bizə iynə vurulmalıdır". İslam dinində var ki, qidalandırıcı vitaminlər xaric bütün dərmanlardan, yəni, iynələrdən, iynə vasitələrindən istər əzələ daxilinə, istərsə də damar daxilinə antibiotik və vitamin olmayan iynələri belə xəstələr müalicəsi üçün oruclu halda qəbul edə bilər. Diş çəkdirmək, keyidicilərdən istifadə etmək də bura aiddir. Mənə bu barədə həkimlər də müraciət edir.

İnsan var ki, bunları bəhanə edir ki, "Mən bir az xəstəyəm", "Əməliyyat keçirmişəm", "Mənə olmaz", "Mən özümü yaxşı hiss etmirəm". Yəni oruc tutmamaq üçün bəhanə kimi bu Allah-təalanın qatında da ciddi nöqsan qəbul olunur. Heç bir səbəb olmadan, bəhanə gətirərək öz nəfsinə sahib çıxa bilmədən oruc tutmursa bir günə, 61 gün ilahidən o cərimələnir. 61 gün üstü gəlir ki, tutmalıdır. Yaxud 60 ac, yetim doyuracaq qədər onun maddi təzminatını ehsan etməlidir. Bir çox bu cür ilahidən də bir cəza planları var. Xəta ilə bağlı ona da müəyyən mənada dini istər maddi cərimə, istər mənəvi öhdəlik kimi nələrsə nəzərdə tutulur".

Hacı Təyyar Hüseynli sözlərinə belə davam edib: "Mən düşünürəm ki, elə şəkər xəstələri var ki doğrudan da 1-ci tipdir, onlar insulin, qida qəbul etməlidir. Yoxsa şəkəri düşə bilər. Onlar istisnalar sırasındadır. Digər şəkər tipləri isə oruc tuta bilər. İnanın ki, 1-ci tip xaric ağır xəstə kimi insulin asılılığı varsa, 2-ci tip və yaxud da ki 3-cü tip o şəkər meylliliyin dərmanı oruc tutmaqdır. Artıq çəkidən əziyyət çəkən, xüsusilə qan təzyiqi ilə bağlı problemləri olan insanlar üçün oruc tutmaq çox faydalıdır.

Mən bütün insanlara məsləhət görərdim ki, ciddi səhhətdə təhlükə probleminin mütəxəssis həkim tərəfindən qadağası olmazsa, oruc tutsunlar. Ümumiyyətlə isə Orucluq gözəllik dünyasıdır".

***Ayşən Vəli***

# 92 yaşlı milyarder nişanı pozub

**ABŞ-dan olan 92 yaşlı milyarder, media rəhbəri Rupert Murdo, ötən ay 66 yaşlı Enn Lesli Smitlə nişanlandığını elan etmişdi. SİA xarici mətbuata istinadən xəbər verir ki, Murdo, beşinci nişanlısı olan Smitə evlilik təklifi edərək, ona 2,5 milyon dollar dəyərində, 11 karatlıq brilyant üzük taxıb. Milyarderin yayda media sənayesindən olan nişanlısı ilə evlənəcəyi ilə bağlı xəbərlər də yayılmışdı. Ancaq dünən Murdoç və Smitin ayrılmaq üçün qarşılıqlı razılığa gəldiyi və buna görə də nişanı pozduğu açıqlanıb.**



# Evdən 12 min manatlıq qızıl oğurlanıb

**Abşeronda evdən 12 min manatlıq qızıl və 2 min manat oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.**

**Bildirilib ki, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Ceyranbatan qəsəbəsindəki evlərin birindən 2000 manat pul və dəyəri 12 min manatdan çox olan qızıl-zinət əşyalarını oğurlamaqda şübhəli bilinən qəsəbə sakini Nəsir Nəsirli saxlanılıb. Abşeron Rayon Polis İdarəsində araşdırma aparılır.**

# Həkim: Uşaqlar 18 yaşınadək 5 dəfə ürək müayinəsindən keçməlidirlər

***İnvaziv kardiologiya sinə yarılmadan, bud arteriyası, yaxud boyun venalarından bədənə daxil olmaqla ürək içərisində aparılan əməliyyatdır. Burada söhbət qapalı ürək əməliyyatlarından gedir. Əməliyyat zamanı bıçaqdan istifadə edilmədiyindən bədəndə heç bir kəsik izi qalmır. AZƏRTAC Azərbaycan Tibb Universitetinə (ATU) istinadla bildirir ki, bunu ATU-nun Tədris Terapevtik Klinikasının invaziv uşaq kardioloqu Elnur İmanov deyib.***

Kardioloqun sözlərinə görə, uşaqlarda anadangəlmə ürək qüsurlarının 30-40 faizini qapalı yolla bərpa etmək mümkündür: "Ən sıx rast gəlinən anadangəlmə ürək qüsurlarından biri mədəciklərarası çəpərin qüsurudur. Uşaq mədəciklərarası çəpərdə qüsurla, el dili ilə desək, dəliklə doğulur. Qasıqdan daxil olmaqla və xüsusi bir avadanlıq vasitəsilə həmin dəlik bağlanır. Bununla da problem aradan qaldırılır. Eyni üsulla qulaqcıqlararası çəpər qüsurunu da heç bir kəsik aparmadan, sırf qapalı yollarla bərpa etmək mümkündür. Dəlik xüsusi istehsal olunan, torşəkilli bir avadanlıqla bağlanır. Bu, olduqca bahalı aparatdır. Orqanizm üçün heç bir əks təsiri yoxdur və qanla təmasda olduğu 6 ay müddətində ət toxumasına çevrilir. Qalıcılığı ömürlükdür. Bəzi yalan məlumatlar valideynləri qapalı ürək əməliyyatlarından yayındırır. Lakin bunlar tam yalan məlumatlardır. Əksinə, heç bir kəsik, travma olmadan həyata keçirilən ürək əməliyyatları uşaqlar üçün olduqca effektivdir".



Mütəxəssis uşaqların dünyaya gələndən 18 yaşınadək periodik olaraq 5 dəfə ürək müayinəsindən keçməli olduğunu deyib: "Bəzi ürək qüsurlarının heç bir şikayət və əlaməti müşahidə edilmir. Ürək qüsurları çəhrayı və göy olmaqla iki cürdür. Uşağın ağız kənarında göyərmə yaranırsa, bunu gözlə görmək mümkündür. Lakin çəhrayı qüsur görünmür və gizli qalır. Onu yalnız müayinə zamanı aşkar edə bilirik. Uşaqlarda əllərin tərləməsi, hərəkət zamanı tez yorulmaq kimi hallar ürək qüsurunun əlamətlərindəndir. Valideyn diqqətli olmalı və bu kimi simptomları müşahidə edərsə, gecikmədən uşaq kardioloquna müraciət etməlidir. Exokardioqrafiyanın (EXO) uşaqlara mənfi təsir edildiyi düşünülür. Hətta valideynlər uşaqlarını ikinci dəfə EXO-ya yönləndirdiyimiz zaman narahat olurlar. Bütün bunlar əsassız məlumatlardır. Ürək xəstəlikləri zamanı müayinə olduqca vacibdir. Məhz bu müayinələr səbəbindən qüsurlar tam aşkar edilir".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**